25 sentyabr 2020-ci il
№31 (8895)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

**Təhsil millətin gələcəyidir!**
*Heydər Əliyev*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

# Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi olaraq tanıyır

Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal edilmiş bütün ərazilərindən çıxarılmalıdır



Azərbaycan Prezidenti, Qoşulmama Hərəkatının sədri İlham Əliyevin sentyabrın 21-də BMT Baş Assambleyasının 75-ci Sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclasındakı videoformatdakı çıxışından

**BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş dörd qətnaməsi Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan torpaqlarından tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Təəssüflər olsun ki, Ermənistan hələ də bu qətnamələrə məhəl qoymamaqda davam edir... Sülhə nail olunması üçün bizim yeganə şərtimiz var. Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal edilmiş bütün ərazilərindən çıxarılmalıdır. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi olaraq tanıyır.**

## Direktorluğa namizədlər 500 yer uğrunda

Bu həftə təhsil sistemində fəallıq davam edib. Müəllim olmaq istəyənlər üçün yekunlaşmaq üzrə olan müəllimlərin işə qəbulu müsabiqəsinin ardınca karyerasında bir pillə yüksəlməyi hədəf seçən pedaqoji heyət üçün direktorların işə qəbulu üzrə müsabiqəyə start verilib.

Təhsil nazirinin əmrinə əsasən sentyabrın 28-dən başlayaraq direktorların işə qəbulu müsabiqəsinə start verilir. 500-dən çox vakant yer üçün başlayan müsabiqənin ilk mərhələsi - sənəd qəbulu oktyabrın 2-dək elektron formada həyata keçiriləcək. Bu müddət ərzində direktor olmaq istəyənlər elektron ərizələrini təsdiq edərək oktyabr ayının ilk yarısında keçirilməsi nəzərdə tutulan test imtahanlarında iştirak etməyə vəsiqə qazanacaqlar. Təhsil Nazirliyinin İnsan resursları şöbəsinin müdiri Eşqi Bağırov "Azərbaycan müəllimi" qəzetinə müsahibəsində bildirib ki, bu il müsabiqəyə 500-dən çox vakant yer çıxarılıb: "Bu məsələdə bir nailiyyət əldə etmişik. Əvvəlki illərdə direktorların işə qəbulu müsabiqəsində hər il 700-ə yaxın vakant yer çıxarılırdı. İndiyədək keçirilən imtahanlarda fərqlənən namizədlərin həmin boş yerlərə təyinatı aparılıb və nəticədə bu il müsabiqəyə 700 yox, 500-dən çox vakant yer çıxarılıb. Düşünürük ki, təqvim ilinin sonunadək bir çox yerlərə təyinatlar olacaq. Direktor vəzifəsinə qalan boş yerlərə təyinatlar gələn il də davam edəcək".

Direktorların işə qəbulu müsabiqəsinə qatılanlara kömək məqsədilə bu ildən bir sıra addımlar atılıb. Belə ki, Təhsil Nazirliyinin rəsmi internet səhifəsinə bu müsabiqədə istifadə ediləcək proqram və test nümunələri yerləşdirilib:

➩Ardı səh.12

## Proses şəffaf, qərar ədalətli

Hər il olduğu kimi, bu il də tələbələrin köçürülməsi prosesi uğurla başa çatdı. Bu yaxınlarda tələbələrin ölkə daxilində və xaricdə yerləşən ali təhsil müəssisələrindən köçürülməsi, yaxud bir ixtisasdan digərinə və təhsilalma formasının dəyişdirilməsi, eləcə də ölkəmizdə yerləşən orta ixtisas təhsili müəssisələrində, magistratura səviyyəsində təhsilalanların köçürülməsi üzrə nəticələr artıq məlum olub.

Qeyd edək ki, bu il yay semestrində *transfer.edu.az* portalı vasitəsi ilə ali təhsil müəssisələrindən köçürülmək üçün ümumilikdə 1070 nəfər müraciət edib. Onlardan 782 nəfərinin müraciəti müsbət cavablandırılıb. Ali təhsil müəssisələrindən köçürülməsinə icazə verilən 710 nəfərdən 671 nəfərini bakalavriatura, 39 nəfərini isə xarici ali təhsil müəssisələrindən köçürülənlər təşkil edir. Orta ixtisas təhsili müəssisələrindən köçürülmək üçün müraciət edən 92 nəfərdən 72-nin müraciətinə müsbət cavab verilib.

Nəzərə çatdıraq ki, Təhsil Nazirliyi tərəfindən 2016-cı ildə yaradılan *transfer.edu.az* portalı tələbələrin köçürülməsi prosesini sadələşdirmək, şəffaflığı təmin etmək məqsədini daşıyır. Portala müraciət edən şəxslər köçürülmək istədiyi təhsil müəssisəsini seçmək imkanına malikdir. Bunun üçün təhsilalanlar tələb olunan məlumatları daxil etməklə, köçürülmə meyarlarına uyğun gəlib-gəlmədiyini müəyyən edə bilərlər.

Köçürülən tələbələr prosesin şəffaf və obyektiv keçirildiyini deyir.

➩Ardı səh.11

## Təhsil Nazirliyi açıqlama verib

Erməni bayrağının rənglərinin əks olunduğu iddia edilən kitabların heç biri dərslik deyildir və Təhsil Nazirliyi tərəfindən nəşr edilməmişdir

Təhsil Nazirliyi bəyan edir ki, sosial şəbəkələrdə yayılmış erməni bayrağının rənglərinin əks olunduğu iddia edilən kitabların heç biri dərslik deyildir və Təhsil Nazirliyi tərəfindən nəşr edilməmişdir.

Təhsil Nazirliyinin məktəblər üçün nəşr etdirdiyi bütün dərsliklərlə *www.trims.edu.az* saytının "Qrifli dərsliklər" bölməsində tanış olmaq mümkündür. Təhsil sahəsi və dərsliklər ictimaiyyətin daim maraq dairəsində olduğundan bəzi maraqlı şəxslər vaxtaşırı olaraq belə köhnəlmiş və ya uydurma məlumatları yaymaqla insanlar arasında süni ajiotaj və narazılıq yaratmağa cəhd edirlər. Çünki bir çox insanlar yayılan xəbəri araşdırmadan onu mütləq həqiqət kimi qəbul edirlər. Təhsil Nazirliyi geniş ictimaiyyətdən dərsliklər barədə yayılan xəbərlərin doğruluğunu *www.trims.edu.az* saytı vasitəsilə yoxlamağı xahiş edir.

Eyni zamanda bildiririk ki, istənilən kitab nəşriyyat məhsulu hesab edilir və onun hazırlanması zamanı mövcud qanunvericiliyə əsasən, nəşr üçün nəzərdə tutulmuş materialların senzurasına yol verilmir. Hər bir hüquqi və ya fiziki şəxs nəşriyyat məhsulunun sifarişçisi ola bilər.



**UNEC brendi 10 ölkədə tanınıb**

➩səh.3




**32-ci Beynəlxalq İnformatika Olimpiadasından 3 medal**

➩səh.8




**Azərbaycanın 3 şəhəri YUNESKO-nun təhsil şəbəkəsində**

➩səh.12



# Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

**Prezident İlham Əliyevin sentyabrın 19-da "Abşeron" yatağının dəniz əməliyyatlarının təməlqoyma mərasimindən sonra Azərbaycan Televiziyasına, İctimai Televiziyaya və Real Televiziyasına müsahibəsindən**

Əgər biz o vaxt müstəqil ölkə olsaydıq, mən tam əminəm ki, Azərbaycan dünyanın ən zəngin ölkəsinə çevrilə bilərdi. Ancaq biz müstəqil deyildik. Düzdür, o vaxt zəngin neft maqnatları, onlar əldə etdikləri gəlirlərin bir hissəsini xeyriyyəçiliyə sərf edirdilər, xüsusilə Hacı Zeynalabdin Tağıyev, Muxtarov, Əsədullayev. Tağıyev, bildiyiniz kimi, Bakıya Şollar su kəmərini çəkdirmişdir, eyni zamanda, təhsilə böyük əhəmiyyət verirdi. Çünki görürdü ki, Azərbaycan gəncləri təhsildən kənarda qalırlar və beləliklə, gələcəkdə onların inkişafı və yüksək yerlərə çıxması problemli ola bilər.

- Mənim babam Əziz Əliyev qədim Azərbaycan torpağı olan İrəvan xanlığı ərazisində kasıb ailədə doğulmuşdu və oxumaq istəyirdi. Ancaq oxumaq üçün pulu yox idi. O vaxt o, Hacı Zeynalabdin Tağıyevə məktub ünvanlamışdı və xahiş etmişdi ki, ona maddi kömək göstərsin. O, həkim olmaq istəyirdi. Təbii ki, Tağıyev onu tanımırdı, ancaq bir vətənpərvər, xeyirxah insan kimi ona pul göndərdi və o pul hesabına Əziz Əliyev Sankt-Peterburq Hərbi Tibb Akademiyasına daxil oldu, orada oxudu, gözəl həkim, görkəmli dövlət xadimi oldu.

- İkinci Dünya müharibəsində sovet ordusunun Qələbəsində Azərbaycan neftçilərinin xüsusi, müstəsna əməyi vardır. Çünki o vaxt Sovet İttifaqında yanacağın 80 faizi, sürtkü yağlarının 90 faizi Azərbaycan tərəfindən təmin edilirdi, Azərbaycanda hərbi texnika istehsal olunurdu. Bu müharibədə 300 mindən çox Azərbaycan nümayəndəsi həlak oldu.

- Hələ Sovet İttifaqının son illərində Azərbaycana qarşı böyük ədalətsizliklər edildi. Xüsusilə Azərbaycan xalqının cəlladı Qorbaçov və onun dəstəsi Azərbaycana nifrətlə yaşayırdı. Nəinki azərbaycanlılara, bütün müsəlmanlara, böyük nifrət hissi var idi, mən bunu dəqiq bilirəm. Bunun nəticəsində Heydər Əliyev Siyasi Bürodan uzaqlaşdırılandan iki həftə sonra ermənilər Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək haqqında iddia qaldırdılar. Heydər Əliyev amili imkan vermirdi ki, onlar baş qaldırsın. Ancaq Qorbaçovun yaxın ətrafı demək olar ki, ermənilərdən ibarət idi və bu əsassız iddiaya qarşı lazımi addımlar atılmadı. Əksinə, o vaxt Qorbaçov hakimiyyəti 100 faiz ermənilərin tərəfini tutdu və Dağlıq Qarabağı Azərbaycandan ayırmaq üçün ilk addımlar məhz o vaxt atıldı.

- İndi baxın, müstəqillik dövründə, hələ 30 ili tamam olmayıb, amma biz hansı işləri görürük. Bu gün Azərbaycan nefti tam şəkildə Azərbaycan xalqının maraqlarına xidmət edir və nəinki nəhəng neft-qaz layihələri, bütün başqa sahələr də. İndi Azərbaycan bütün reytinqlərdə ən qabaqcıl yerlərdədir. Azərbaycanda aparılan infrastruktur siyasəti, infrastruktur layihələrinin icrası nümunə kimi göstərilir... Bu gün biz infrastruktur layihələrinin təhlilinə verilən qiymətə görə dünyada qabaqcıl yerlərdəyik... Bizim digər sosial infrastruktur layihələrimiz – müstəqillik dövründə 3700 məktəb tikilib və təmir edilib. Amma müstəqilliyə qədər o məktəblər nə gündə idi.

- Biz kosmik dövlətə çevrildik, biz nəhəng neft-qaz layihələri icra edirik. Təkcə iqtisadiyyat və sənaye sahəsində yox, baxın, idman sahəsində, Olimpiya Oyunlarında medalların sayına görə 14-cü yerdəyik. Sovet dövründə bunu təsəvvür etmək mümkün idimi? Əgər o vaxt kimsə desəydi ki, bunların biri mümkündür, bəlkə də ona gülərdilər. Budur, müstəqilliyin üstünlüyü. Biz azad, müstəqil ölkədə yaşayırıq, öz taleyimizin sahibiyik. Bizim təbii resurslarımız xalqımızın maraqlarına xidmət edir.

- 1990-cı illərin əvvəllərində, o vaxt Azərbaycanda hakimiyyətdə olmuş insanların xəyanəti, satqınlığı nəticəsində biz Dağlıq Qarabağı müvəqqəti olaraq itirdik. Mən bugünkü müsahibədə müstəqilliyə qədər bəzi məqamları dilə gətirdim ki, Azərbaycan ictimaiyyəti bu hadisələri unutmasın, gənc nəsil də bunu bilsin. Dağlıq Qarabağ bizim qədim, tarixi torpağımızdır və biz mütləq o torpaqlara qayıdacağıq. Dağıdılmış bütün tarixi abidələri, evləri bərpa edəcəyik. Küçələrə Azərbaycan adlarını verəcəyik, adları dəyişdirilmiş kəndlərə öz əsl adlarını qaytaracağıq. Biz mütləq bunu edəcəyik. Çünki haqq-ədalət bizim tərəfimizdədir. Bizim başqa ölkələrin torpağında gözümüz yoxdur, öz torpağımızı da heç kimə verən deyilik. Bu gün mövcud olan Ermənistan tarixi Azərbaycan torpaqlarında yaradılıbdır. Bu haqda kifayət qədər tarixi sənədlər var. İkinci erməni dövlətinin yaradılmasına biz heç vaxt imkan verməyəcəyik. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!



## Ə.P.Həsənova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

**1.** Azərbaycan Dövlət İqtisad Universitetinin 90 illiyi münasibətilə və Azərbaycanda təhsilin inkişafındakı xidmətlərinə görə Əli Pənah oğlu Həsənova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 24 sentyabr 2020-ci il*



## Azərbaycan Dövlət İqtisad Universitetinin əməkdaşlarının təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Dövlət İqtisad Universitetinin 90 illiyi münasibətilə və Azərbaycanda təhsilin inkişafındakı xidmətlərinə görə Azərbaycan Dövlət İqtisad Universitetinin aşağıdakı əməkdaşları təltif edilsinlər:

**"Şöhrət" ordeni ilə**

Əhmədov Məhiş Alış oğlu
Əlirzayev Əli Qənbərəli oğlu
Muradov Ədalət Cəlal oğlu
Şəkərəliyev Arif Şəkərəli oğlu

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Azadov Eldar Həsənxan oğlu
Əsgərov Şaiq Əhəd oğlu
Səbzəliyev Sifariz Mirzəxan oğlu
Vəliyev Həbib Məmməd oğlu

**"Tərəqqi" medalı ilə**

Abasov Alcan Bayraməli oğlu
Abbasova Afət Musa qızı
Babayev Əlican Pirican oğlu
Babayev Telman Qurban oğlu
Babayeva Rəna Fikrət qızı
Əbdülhəsənov Tofiq Əbdüləziz oğlu
Əhmədov Mirağa Məhərrəm oğlu
Əliyev Müşrəvan Əli oğlu
Əliyev Nəvai Şaxlar oğlu
Hacıyev Əli Vəli oğlu
Həsənli Mirələm Xası oğlu
Həsənov Heydər Sərdar oğlu
İsayev Söhrab Zülfüqar oğlu
Qəhrəmanov Nizami Əmir oğlu
Quliyev Müşfiq Yelmar oğlu
Manafov Qabil Nadir oğlu
Məmmədov Elşad Yaqub oğlu
Məmmədova Sevər Mömin qızı
Muradov Rəşad Şahbaz oğlu
Mustafayeva Zöhrə İsmayıl qızı
Nuriyev Məhəmmədəli Nurəddin oğlu
Rzayev Anar Yaşar oğlu
Seyidov Abbas Qadir oğlu
Səidov Rasim Əzim oğlu
Sərdarova Sevda Yusuf qızı
Tağıyev Mayıl Məsim oğlu
Yusifova Xalidə Hacı qızı
Zeynalov Mikayıl Gəray oğlu.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 24 sentyabr 2020-ci il*

## Azərbaycan Dövlət İqtisad Universitetinin əməkdaşlarına fəxri adların verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Dövlət İqtisad Universitetinin 90 illiyi münasibətilə və Azərbaycanda təhsilin inkişafındakı xidmətlərinə görə Azərbaycan Dövlət İqtisad Universitetinin aşağıdakı əməkdaşlarına Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar elm xadimi"**

Həsənli Yadulla Həmdulla oğlu

**"Əməkdar müəllim"**

Abbasov Qəzənfər Əli oğlu
Əliyev Məhəmməd Ələkbər oğlu
Əliyev Ümüdvar Qənbər oğlu
Fərzəliyev Məzahir Həmzə oğlu
Hacıyev Nazim Özbəy oğlu
Həsənov Vəkil Səfiyar oğlu
Həsənova Zöhrə Bilal qızı
Hüseynov Vəkil Neymət oğlu
Kərimov İrşad Abdul oğlu
Quliyev Asiman Aydın oğlu
Məmmədov Məmməd Hümbət oğlu
Məmmədov Zahid Fərrux oğlu
Osmanov Tofiq Ramazan oğlu
Rzayev Rövnəq Mirzə oğlu
Rzayeva Gülnarə Namik qızı
Sadıqov Mustafa Məmməd Sadıq oğlu
Şıxlinskaya Gülnarə Teymur qızı
Vəliyev Fazil Əli oğlu
Yaqubov Sakit Məmədi oğlu.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 24 sentyabr 2020-ci il*

# UNEC brendi 10 ölkədə tanınıb




## Universitetin əhatə dairəsi genişlənir

Azərbaycan Dövlət İqtisad Universitetinin UNEC brendi daha bir ölkədə tanınıb. Universitetdən AZƏRTAC-a bildirilib ki, dünya təhsil brendləri arasında mövqeyini gücləndirən UNEC Rusiyadan sonra Ukraynada da tanınıb. Belə ki, UNEC Ukrayna İntellektual Mülkiyyət İnstitutu tərəfindən Azərbaycan Dövlət İqtisad Universitetinin brendi kimi qəbul olunub.

Əhatə dairəsini gündən-günə genişləndirən UNEC Litva, Latviya, Polşa, Slovakiya, Macarıstan, Xorvatiya, Türkiyə, Estoniya, Rusiyadan sonra 10-cu ölkədə tanınıb.

# Uşaqların təlim-tərbiyəsi Heydər Əliyev Fondunun fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edir

## Bülbülə qəsəbəsindəki Uşaq İncəsənət Məktəbinin yeni binasının açılışı olub




## Birinci vitse-prezident Mehriban Əliyeva açılışda iştirak edib

Sentyabrın 22-də Bakının Suraxanı rayonunun Bülbülə qəsəbəsindəki Gülarə Əliyeva adına 3 nömrəli Uşaq İncəsənət Məktəbinin yeni binası istifadəyə verilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva tədbirdə iştirak edib.

Birinci vitse-prezident Mehriban Əliyevaya məlumat verildi ki, məktəb 1935-ci ildə musiqi cəmiyyətinin nəzdində yaradılıb, 1940-cı ildən 5 nömrəli Uşaq Musiqi Məktəbi kimi, 1988-ci ildən isə 3 nömrəli Uşaq İncəsənət Məktəbi kimi fəaliyyət göstərməyə başlayıb.





Bildirildi ki, məktəbin ikimərtəbəli binası qəzalı vəziyyətdə olduğundan Heydər Əliyev Fondu tərəfindən yeni bina inşa edilib. Yeni bina 3 mərtəbədən, 25 sinif otağından, rəqs, rəsm otaqlarından, akt zalından, kitabxana, müəllimlər otağı və yeməkxanadan ibarətdir. Məktəbdə hazırda 17 ixtisas üzrə 493 şagird təhsil alır. Bu ixtisaslar üzrə 110 müəllim fəaliyyət göstərir. Uşaq İncəsənət Məktəbində rəqs və rəsm dərsləri qrup şəklində, digər ixtisaslar fərdi tədris olunur.

İndiyədək məktəbin 35-dən çox şagirdi beynəlxalq müsabiqələr üzrə laureat adına layiq görülüb, 70-ə yaxın şagird isə respublika müsabiqələrində yüksək yerlər tutub. Gülarə Əliyeva adına 3 nömrəli Uşaq İncəsənət Məktəbinin bir sıra tanınmış məzunları da var.

Qeyd edək ki, bu gün Azərbaycanda təhsil və mədəniyyətin inkişafı istiqamətində mühüm addımlar atılır, elm və mədəniyyət xadimlərinə xüsusi diqqət göstərilir. Heydər Əliyev Fondu bu işə önəmli töhfələr verir. Ölkəmizə tanınmış incəsənət xadimləri bəxş etmiş Gülarə Əliyeva adına 3 nömrəli Uşaq İncəsənət Məktəbi üçün ən müasir standartlara cavab verən yeni binanın inşası da Fondun bu sahəyə göstərdiyi diqqət və qayğının bariz nümunəsidir.

# Şağan qəsəbəsində 212 saylı uşaq bağçasının yeni binası istifadəyə verilib

## Birinci vitse-prezident Mehriban Əliyeva tədbirdə iştirak edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva sentyabrın 22-də Bakının Xəzər rayonunun Şağan qəsəbəsində yerləşən 212 saylı uşaq bağçasının yeni binasının açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyevaya yeni tikilən bina barədə məlumat verildi.

Bildirildi ki, 212 saylı uşaq bağçasının yerləşdiyi bina 1940-cı ildən fəaliyyət göstərib. 2019-cu ilin sonlarından 2020-ci ilin avqustunadək Heydər Əliyev Fondu tərəfindən ərazidə uşaq bağçası üçün yeni binanın inşası həyata keçirilib.

Qeyd olundu ki, iki mərtəbədən ibarət bağça 100 yerlikdir, burada 4 qrup fəaliyyət göstərir. Bağçada körpələr, orta, böyük və məktəbə hazırlıq qrupları üçün yataq otaqları, uşaqların asudə vaxtlarını keçirmələri üçün oyun otaqları, bufet, yemək otağı var.





Bağçada akt və idman zalları, uşaqların istirahəti və əyləncəsi üçün yaşıl terras, futbol, basketbol sahəsi, balacaların fiziki hazırlığı üçün skaladrom sahəsi, təbiət ilə ünsiyyət üçün əkin sahəsi, uşaqların inkişafının təmin olunması üçün yaradıcılıq otağı da mövcuddur. Binada, həmçinin müəllimlər üçün iş və metodiki otaqlar da yaradılıb.

Qeyd edək ki, Azərbaycanda bütün sahələrdə olduğu kimi, uşaqların sosial müdafiəsinin gücləndirilməsinə, onların sağlam və xoşbəxt böyümələrinə diqqət və qayğı göstərilir. Ölkəmizdə müasir körpələr evi-uşaq bağçalarının istifadəyə verilməsi bunun əyani təsdiqidir. Yeni uşaq tərbiyə müəssisələrinin inşasına, eləcə də mövcud olanların ən müasir tələblər səviyyəsində yenidən qurulmasına Heydər Əliyev Fondu xüsusi töhfələr verir. Heydər Əliyev Fondunun "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" proqramı bir daha sübut edir ki, uşaqların təlim-tərbiyəsi Fondun fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edir.

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 13 may tarixli 64 nömrəli Qərarı ilə təsdiq edilmiş "Xarici dövlətlərin ali təhsil sahəsində ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiyası) Qaydaları"nda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

"Təhsil haqqında" və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 19 may tarixli 104-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2005-ci il 1 mart tarixli 203 nömrəli, "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli, "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2013-cü il 8 iyul tarixli 939 nömrəli, "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"-nin təsdiq edilməsi haqqında" 2014-cü il 26 dekabr tarixli 432 nömrəli, "Azərbaycan Turizm və Menecment Universitetinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2015-ci il 21 dekabr tarixli 710 nömrəli, "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasının Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2016-cı il 4 avqust tarixli 1007 nömrəli və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1532-VQ nömrəli Qanununun tətbiqi barədə" 2019-cu il 27 may tarixli 711 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 7 iyul tarixli 1088 nömrəli Fərmanının 1.4-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 13 may tarixli 64 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 5, maddə 249; 2009, № 6, maddə 491) ilə təsdiq edilmiş "Xarici dövlətlərin ali təhsil sahəsində ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiyası) Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 2.1-ci bəndin üçüncü abzası ləğv edilsin.

2. Aşağıdakı məzmunda 2.1-1-ci bənd əlavə edilsin:

"2.1-1. Azərbaycan Respublikasında xarici ölkələrin ali təhsil sahəsində ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiyası), xarici dövlətlərdə verilən təhsil haqqında sənədlərin tanınması sahəsində göstərilən xidmətlərə görə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş məbləğdə xidmət haqqı ödənilir.".

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş Naziri**

*Bakı şəhəri, 21 sentyabr 2020-ci il*

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2010-cu il 6 sentyabr tarixli 163 nömrəli və "Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları"nın təsdiq edilməsi haqqında" 2010-cu il 28 sentyabr tarixli 167 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

"Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 dekabr tarixli 713 nömrəli Fərmanı ilə təsdiq edilmiş 4 nömrəli Əlavə - "Naxçıvan Muxtar Respublikasının icra hakimiyyəti orqanları tərəfindən lisenziya verilən fəaliyyət növlərinin siyahısı"nda, 2013-cü il 8 iyul tarixli 939 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının Nizamnaməsi"ndə, 2014-cü il 26 dekabr tarixli 432 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"ndə, 2015-ci il 17 aprel tarixli 502 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının Nizamnaməsi"ndə, 2015-ci il 21 dekabr tarixli 710 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Turizm və Menecment Universitetinin Nizamnaməsi"ndə, 2012-ci il 9 iyul tarixli 680 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin Nizamnaməsi"ndə, 2015-ci il 13 avqust tarixli 583 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin Nizamnaməsi"ndə və 2017-ci il 21 fevral tarixli 1254 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Bakı Mühəndislik Universiteti" publik hüquqi şəxsin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 iyun tarixli 1056 nömrəli Fərmanının 9-cu hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 6 sentyabr tarixli 163 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 9, maddə 829; 2018, № 11, maddə 2429, № 12 (II kitab), maddə 2739; 2019, № 12 maddə 2099; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 avqust tarixli 291 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.4-cü, 7.3-cü bəndlərə və 3.2.1-ci yarımbəndə "fəaliyyətinə" sözündən əvvəl "qanunla tələb olunduqda" sözləri əlavə edilsin;

1.2. 3.1.5-ci yarımbənddə "müvafiq lisenziyası olan" sözləri "qanunla tələb olunduqda fəaliyyətinə lisenziya verilmiş" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 28 sentyabr tarixli 167 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 9, maddə 833; 2012, № 6, maddə 624, № 10, maddə 1005; 2016, № 10, maddə 1713; 2017, № 2, maddə 314; 2018, № 11, maddə 2429; 2020, № 2, maddə 216) ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları"nın 2.4-cü bəndinin ikinci abzasından "məktəbəqədər və ümumi" sözləri çıxarılsın.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş Naziri**

*Bakı şəhəri, 21 sentyabr 2020-ci il*

# Məktəblinin dostu pandemiya dövrü məktəbində

## 226 ümumtəhsil müəssisəsində fəaliyyət göstərən layihə 400 minə yaxın şagirdi əhatə edir



**Ruhiyyə DAŞSALAHLI**

Məktəblinin dostu pandemiya dövründə də onların yanındadır. Hətta mövcud epidemioloji şəraitdə məktəbdə onlara ehtiyac daha böyükdür desək, yanılmarıq. Layihənin PR meneceri Nərgiz Kərimovanın sözlərinə görə, "Məktəblinin dostu" layihəsi çərçivəsində məktəblərdə xüsusi iş aparılır: "Bildiyiniz kimi, layihə ilkin olaraq şagird sayı çox olan məktəblərə şamil edilib. Belə ki, Bakı, Abşeron və Sumqayıt üzrə sıxlığı yüksək olan məktəblərdə COVID-19 ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün "Məktəblinin dostu" və "Bir" Tələbə-Könüllü layihələri üzrə dəstək komandaları yaradılıb. Bu məqsədlə ümumilikdə 300 məktəblinin dostu və 700 könüllü işə cəlb olunub. 226 ümumtəhsil müəssisəsində - Bakı şəhəri üzrə 186, Sumqayıt şəhərindəki 20, Abşeron rayonundakı 20 məktəbdə fəaliyyət göstərən komandalar sıxlığın tənzimlənməsi məqsədi ilə məktəbə giriş və çıxışa, məsələn-alternativ giriş qapılarından düzgün istifadə edilməsinə xüsusi nəzarət edir".

Beləliklə, yenə məktəb qapısından girən hər kəsin ilk gördüyü məhz məktəblinin dostları olacaq. Məktəblinin dostları şagirdlərin, məktəb kollektivinin, ümumiyyətlə, məktəbə daxil olan hər kəsin temperaturunun ölçülməsində, dezinfeksiyaedici vasitələrdən istifadədə məktəb heyətinə dəstək olur: "Temperaturu 37.1° C dərəcədən yüksək olan şəxslər məktəb binası xaricində gözlədilir. 5 dəqiqədən sonra yenidən hərarəti yoxlanılır. Hərarəti yuxarı olanların xüsusi jurnalda qeydiyyatı aparılır. Hərarəti enməyən təhsilalanlar haqqında məktəb rəhbərliyinə məlumat verilir, valideyni gələnə qədər xüsusi izolyasiya otağında saxlanılmasına nəzarət edilir".

Məktəblinin dostunun işi bununla da bitmir. Onlar COVID-19 simptomları olan şəxslərin, onlarla təmasda olanların müəyyənləşdirilməsinə kömək edir. Sözügedən infeksiyadan qorunmaq üsulları ilə bağlı olaraq maarifləndirmə işinin aparılmasına dəstək olurlar.

Xatırladaq ki, təhsil sistemində özünü təsdiq edən və icrasına başlanıldıqdan dərhal sonra böyük əks-səda yaradan layihələrdən olan "Məktəblinin dostu" layihəsi ümumilikdə 400 minə yaxın şagirdi əhatə edir. 2016-cı ilin dekabrından fəaliyyət göstərən layihənin məqsədi müəllim və şagirdlər üçün daha təhlükəsiz mühit yaratmaq, fövqəladə hal baş verdikdə ilk tibbi və psixoloji yardım göstərmək, mütəmadi olaraq şagird, valideyn, təlim-tərbiyə müəssisələrinin kollektivi ilə maarifləndirmə və diaqnostik işlər aparmaqdır. Bununla yanaşı, "Məktəblinin dostu" seçilmiş şəxslər hər bir yaş mərhələsində uşaqların hərtərəfli şəxsi keyfiyyətlərinin və intellektual inkişafının təmin edilməsi, onlarda özünütərbiyə və özünüinkişaf bacarığının formalaşdırılmasında iştirak edirlər.

## Məktəblilər üçün rəsm müsabiqəsi

Məktəblilər arasında YUNESKO-nun 75 illik yubileyi çərçivəsində 21 sentyabr - Beynəlxalq Sülh Gününə həsr olunmuş "Sülhü birgə formalaşdıraq!" mövzusunda rəsm müsabiqəsi elan olunur.

Müsabiqə Təhsil Nazirliyinin "Məktəblinin dostu" layihəsi və Azərbaycan YUNESKO Klublarının birgə təşkilatçılığı, YUNESKO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının dəstəyi ilə Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunun məktəbləri arasında keçirilir.

Müsabiqənin keçirilməsində məqsəd BMT və YUNESKO tərəfindən hər il qeyd olunan 21 sentyabr- Beynəlxalq Sülh Gününə uşaq və gənclərin diqqətini cəlb etmək, onlara sülh mədəniyyəti, xalqlar və insanlar arasında qarşılıqlı anlaşma, dostluq münasibətlərinin əhəmiyyətini, milli dəyərlərimizi, tolerantlıq və multikulturalizm ənənələrini aşılamaq, habelə bədii-estetik səviyyələrini yüksəltmək, xüsusi istedada malik olan uşaqları aşkarlamaq və onların qabiliyyətlərinin inkişaf etdirilməsinə dəstək verməkdir.

Müsabiqə üç yaş qrupu üzrə (6-9, 10-14, 15-17 yaşlı) uşaq və gənclər arasında keçirilir. Hər yaş qrupu üzrə 3 qalib müəyyən olunacaq. Müsabiqənin birinci mərhələsində hər rayon üzrə üç yaş qrupu üzrə qaliblər seçiləcək, sonra onlar arasında müvafiq yaş qrupları üzrə ümumilikdə 9 qalib müəyyən ediləcək.

Birinci mərhələ üzrə rəsmlərin qəbulu noyabrın 15-dək davam edəcək və 30 noyabr tarixinə qədər qaliblər elan olunacaq. İkinci mərhələnin qaliblərinin isə dekabr ayında elan olunması nəzərdə tutulur.

Mövzu və düzgün kompozisiyaların üstünlük veriləcəyi müsabiqədə ən çox şagirdlərin öz duyğuları ilə işlənən əsərlər seçiləcək.

Sonda qaliblər fəxri diplomlarla mükafatlandırılacaq.

# Ümumi təhsil müəssisələrinin məzunlarının qızıl və gümüş nişanla təltifi haqqında

## Azərbaycan Respublikası Təhsil nazirinin əmri

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 14 yanvar tarixli 8 nömrəli qərarı ilə təsdiq olunmuş "Ümumi təhsili xüsusi nailiyyətlərlə başa vuran məzunların qızıl və ya gümüş nişanla təltif olunma Qaydası"nı, 2019/2020-ci dərs ilində tam orta təhsil səviyyəsi üzrə aparılmış yekun attestasiyanın nəticələrini nəzərə alaraq və "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** *Aşağıda adları qeyd edilən XI sinif məzunları qızıl nişanla təltif olunsunlar:*

1. Hüseynquliyev İlham Əlövsət oğlu - Naxçıvan MR, Heydər Əliyev adına tam orta məktəb
2. Zeynalova Nərmin Emin qızı - Naxçıvan MR, Heydər Əliyev adına tam orta məktəb
3. Sayılov Allahverdi Pənah oğlu - Naxçıvan MR, Heydər Əliyev adına tam orta məktəb
4. Babayeva Adilə Əlidadaş qızı - Naxçıvan MR, Naxçıvan qızlar liseyi
5. Dünyamalıyev Məftun Əziz oğlu - Naxçıvan MR, Qarnizon tam orta məktəbi
6. Şahverdiyev Kamal Səbuhi oğlu - Naxçıvan MR, Naxçıvan şəhəri 3 nömrəli tam orta məktəb
7. Əliyeva Elsunə Eldəniz qızı - Naxçıvan MR, Naxçıvan şəhəri 7 nömrəli tam orta məktəb
8. Bağırov Siyavuş Mehdi oğlu - Naxçıvan MR, Naxçıvan şəhəri 8 nömrəli tam orta məktəb
9. Kətanov Elnur Hatəm oğlu - Naxçıvan MR, Naxçıvan şəhəri 17 nömrəli tam orta məktəb
10. Salmanzadə Kərəm Səbuhi oğlu - Naxçıvan MR, Şərur şəhəri Fizika-riyaziyyat təmayüllü lisey
11. Rzayeva Nərmin Sadiq qızı - Naxçıvan MR, Şərur şəhəri 2 nömrəli tam orta məktəb
12. Quliyeva Fatimə Qasım qızı - Naxçıvan MR, Babək rayonu Güznüt kənd tam orta məktəbi
13. Əliyeva Nərmin Ramin qızı - Naxçıvan MR, Babək rayonu Qahab kənd tam orta məktəbi
14. Tahirli Emil Bəxtiyar oğlu - Naxçıvan MR, Babək rayonu Yarımca kənd tam orta məktəbi
15. Həsənov Nəriman Pərviz oğlu - Naxçıvan MR, Ordubad rayonu Nüsnüs kənd tam orta məktəbi
16. İmanov Rifat Hüseyn oğlu - Naxçıvan MR, Culfa rayonu Teyvaz kənd tam orta məktəbi
17. İbadov Telman Cavid oğlu - Naxçıvan MR, Heydər Əliyev adına hərbi lisey
18. Rüstəmli Emil Həsrət oğlu - Bakı şəhəri 7 nömrəli tam orta məktəb
19. Kazımov Əli Oqtay oğlu - Bakı şəhəri 16 nömrəli Texniki-humanitar lisey
20. Qurbanlı Gülnar Nəcəf qızı - Bakı şəhəri 60 nömrəli tam orta məktəb
21. Hüseynov İlqar Vüqar oğlu - Bakı şəhəri 67 nömrəli tam orta məktəb
22. İbrahimov Rafiq Elşən oğlu - Bakı şəhəri 72 nömrəli məktəb-lisey
23. Allahverdiyev Nüsrət Ramil oğlu - Bakı şəhəri 114 nömrəli tam orta məktəb
24. Nuriyeva Nigar Fikrət qızı - Bakı şəhəri 118 nömrəli tam orta məktəb
25. Əliyev Cavad Höccət oğlu - Bakı şəhəri 127 nömrəli tam orta məktəb
26. Mehdiyev Hüseyn İntiqam oğlu - Bakı şəhəri 151 nömrəli tam orta məktəb
27. Dünyamalıyev Zeynal Hafiz oğlu - Bakı şəhəri 165 nömrəli tam orta məktəb
28. Babayeva Nərgiz Tahir qızı - Bakı şəhəri 198 nömrəli tam orta məktəb
29. Süleymanlı Nəzrin Elmar qızı - Bakı şəhəri 213 nömrəli məktəb-lisey
30. Məmmədova Şəhri Vüqar qızı - Bakı şəhəri 220 nömrəli məktəb-lisey
31. Hüseynov İsmayıl Kamil oğlu - Bakı şəhəri 263 nömrəli tam orta məktəb
32. Cavadzadə Əlicavad Kənan oğlu - Bakı şəhəri 264 nömrəli məktəb-lisey
33. Kərimli Əziz İlham oğlu - Bakı şəhəri 276 nömrəli tam orta məktəb
34. Camalova Reyhan Rauf qızı - Bakı şəhəri 283 nömrəli tam orta məktəb
35. Əhmədov Emil Ramil oğlu - Bakı şəhəri 313 nömrəli tam orta məktəb
36. Guseinova Gunai Polad qızı - Bakı şəhəri 313 nömrəli tam orta məktəb
37. Rzayev Subatay Nofəl oğlu - Gəncə şəhəri 1 nömrəli tam orta məktəb
38. Quluyev Əli Həsən oğlu - Gəncə şəhəri 31 nömrəli tam orta məktəb
39. İsmayılzadə Türkan İlham qızı - Şirvan şəhəri 21 nömrəli tam orta məktəb
40. Kazımov Abdullah Ramin oğlu - Sumqayıt şəhəri 4 nömrəli tam orta məktəb
41. Yusifov Kamal Ceyhun oğlu - Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziya
42. Qasımov Toğrul Nahid oğlu - Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziya
43. Qəniyeva Leyla Telman qızı - Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziya
44. Qəribova Samirə Samir qızı - Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziya
45. Məmmədli Nəsibə Asif qızı - Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziya
46. Mustafazadə Murad Nadir oğlu - Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziya
47. Süleymanova Firəngiz Ramil qızı - Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziya
48. İsmayılova Sənubər Eyvaz qızı - Sumqayıt şəhəri 30 nömrəli tam orta məktəb
49. Məmmədli Fəxri Firudin oğlu - Mingəçevir şəhəri Təbiət-riyaziyyat və humanitar elmlər təmayüllü lisey
50. Mustafayev Samid Zaur oğlu - Mingəçevir şəhəri Texniki-humanitar lisey
51. İsmayılzadə Nicat Qoşqar oğlu - Abşeron rayonu Masazır kənd 3 nömrəli tam orta məktəb
52. Hüseynov Tərlan Zaman oğlu - Astara rayonu Pensər kənd 2 nömrəli məktəb-lisey
53. Bəyərov Elmar Eldar oğlu - Balakən şəhəri 1 nömrəli tam orta məktəb
54. İsgəndərli Leyla Fazil qızı - Balakən şəhəri Texniki və humanitar təmayüllü lisey
55. Əhmədov Natiq Hüseynoviç - Bərdə şəhəri 7 nömrəli tam orta məktəb
56. Abdullayev Nihat Rauf oğlu - Biləsuvar şəhəri M.İbrahimov adına bağça-məktəb-lisey kompleksi
57. Xancanlı Nicat Arif oğlu - İsmayıllı şəhəri 3 nömrəli məktəb-lisey
58. Salehova Aytən Vüqar qızı - İsmayıllı şəhəri 3 nömrəli məktəb-lisey
59. Bağırova Röya Hüseynxan qızı - Lənkəran rayonu Çay fabriki qəsəbə tam orta məktəbi
60. Abbaslı Həsən İskəndər oğlu - Lənkəran şəhəri 1 nömrəli tam orta məktəb
61. Cəfərli Adil Elşən oğlu - Lənkəran şəhəri 10 nömrəli tam orta məktəb
62. Səfərli Toğrul Əhməd oğlu - Masallı rayonu Qızılağac kənd 1 nömrəli tam orta məktəb
63. Ramazanlı Azər Maarif oğlu - Masallı rayonu Qızılağac kənd 1 nömrəli tam orta məktəb
64. Məmmədov Əlif Namiq oğlu - Neftçala rayonu Qaçaqkənd kənd tam orta məktəbi
65. Mikayıllı Rüfanə İlqar qızı - Oğuz rayonu Xaçmaz kənd 1 nömrəli tam orta məktəb
66. Məcidli Şəbnəm Ceyhun qızı - Oğuz rayonu Tərkəş kənd tam orta məktəbi
67. Şabanov Mais Eldəniz oğlu - Qax şəhəri 2 nömrəli məktəb-lisey
68. Babazadə Riad Adil oğlu - Qax şəhəri 2 nömrəli məktəb-lisey
69. Həşimli Lalə Feyzullah qızı - Qax şəhəri 2 nömrəli məktəb-lisey
70. Bayramlı Elçin Rövşən oğlu - Qazax şəhəri 1 nömrəli tam orta məktəb
71. Quliyeva Günay Sabir qızı - Qazax rayonu Bala Çaylı kənd tam orta məktəbi
72. Əsgərli Zeynəb Ramil qızı - Qəbələ rayonu Vəndam qəsəbə 1 nömrəli tam orta məktəb
73. Ədilova Xalidə Yadigar qızı - Qəbələ rayonu Mamaylı kənd tam orta məktəbi
74. Abuşova Məleykə Vüqar qızı - Qəbələ rayonu Nohurqışlaq kənd tam orta məktəbi
75. Məsimov İsmayıl Cahangir oğlu - Qəbələ rayonu Nohurqışlaq kənd tam orta məktəbi
76. Kazımova Nərminə Tofiq qızı - Salyan şəhəri 7 nömrəli məktəb-lisey
77. Quliyev Vüqar Əli oğlu - Şuşa rayonu Malıbəyli kənd 1 nömrəli tam orta məktəb
78. Paşayeva Səba Gəray qızı - Tovuz rayonu Böyük Qışlaq kənd tam orta məktəbi
79. Həbibova Jalə Elman qızı - Xaçmaz rayonu Köhnə Xaçmaz kənd tam orta məktəbi
80. Musayev Musa Bədrəddin oğlu - Zaqatala rayonu Mamrux kənd tam orta məktəbi
81. Qədirzadə Aydan Soltan qızı - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Akademik Zərifə Əliyeva adına lisey
82. Məhəmmədli Qurban Elmir oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Akademik Zərifə Əliyeva adına lisey
83. Qayıbova Aytən Elman qızı - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Akademik Zərifə Əliyeva adına lisey
84. Əkbərli Səid Vidadi oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki T.İsmayılov adına 6 nömrəli məktəb-lisey
85. İbrahimzadə Şahanə Akif qızı - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki T.İsmayılov adına 6 nömrəli məktəb-lisey
86. İsayeva Təhminə İsmayıl qızı - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki "Ankara məktəbi" məktəb-lisey
87. Baxışova Şəbnəm Sakit qızı - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki "Ankara məktəbi" məktəb-lisey
88. Babayeva Fidan Namiq qızı - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü lisey
89. Məmmədov Elvin Vəli oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü lisey
90. Musayeva Radmila Cavid qızı - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü lisey
91. Nağızadə Cavid Emin oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü lisey
92. Ömərova Fatimə Elimxan qızı - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü lisey
93. Ağazadə Murad Firdovsi oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü lisey
94. Bayramlı Zəhra Rövşən qızı - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü lisey
95. Eynizadə Murad Mayis oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü lisey
96. Məmmədov Abbas Zülfiqar oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü lisey
97. Musayev Rəşad Aydın oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü lisey
98. Namazov Abutalıb Şahvələd oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü lisey
99. Yusifov Məhəmməd İlqar oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü lisey
100. Şükür Əlfi Ərən Emin oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Bakı Avropa Liseyi

⇨Ardı səh.7

# Ümumi təhsil müəssisələrinin məzunlarının qızıl və gümüş nişanla təltifi haqqında

## Azərbaycan Respublikası Təhsil nazirinin əmri

⇦ Əvvəli səh.6

101. Məmmədzadə İsmayıl Mobil oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Bakı Avropa Liseyi
102. Əzimli Rüfət Elman oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Bakı Avropa Liseyi
103. Cümşüdlü Həsən Faiq oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Bakı Avropa Liseyi
104. Yusifova Aynur İsaxan qızı - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki "Zəngi" liseyi
105. Novruzova Röya Rövşən qızı - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki "Zəngi" liseyi
106. Kişiyeva Züleyxa Şahin qızı - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki S.C.Pişəvəri adına Respublika humanitar fənlər gimnaziyası
107. Bayramzadə Şükufə Cəfər qızı - BDU-nun nəzdindəki "Gənc istedadlar" liseyi
108. Hacıyev Şamil Nazim oğlu - BDU-nun nəzdindəki "Gənc istedadlar" liseyi
109. Hüseyn-zadə Əkbər Səyavuş oğlu - BDU-nun nəzdindəki "Gənc istedadlar" liseyi
110. Kuzutürk Julide Murat qızı - Bakı Modern Təhsil Kompleksi
111. Qurbanlı Məhəmməd Əli Əsgər oğlu - Heydər Əliyev adına Müasir Təhsil Kompleksi
112. Abasov Hüseynağa Hüsaməddin oğlu - Türkiyə Dəyanət Vəqfi Bakı türk liseyi
113. Hüseynli Elvin Arif oğlu - Türkiyə Dəyanət Vəqfi Bakı türk liseyi
114. Qasımov Xaqani Şıxəli oğlu - Türkiyə Dəyanət Vəqfi Bakı türk liseyi
115. Mahmudlu Adil Müşviq oğlu - Türkiyə Dəyanət Vəqfi Bakı türk liseyi
116. Alızadə Anar Müşviq oğlu - Türkiyə Dəyanət Vəqfi Bakı türk liseyi
117. Məmmədova Ayan Samir qızı - Türkiyə Dəyanət Vəqfi Bakı türk liseyi
118. Rzayev Pərviz Ramin oğlu - Türkiyə Dəyanət Vəqfi Bakı türk liseyi
119. Ağacan Alpturan Kamil oğlu - Türkiyə Dəyanət Vəqfi Bakı türk liseyi
120. Rzazadə Kamran Vasif oğlu - Türkiyə Dəyanət Vəqfi Bakı türk liseyi
121. Bayramlı Mustafa Elşən oğlu - Türkiyə Dəyanət Vəqfi Bakı türk liseyi
122. Beşirova Aişə Həbib qızı - Türkiyə Dəyanət Vəqfi Bakı türk liseyi
123. Fərzullazadə Əjdər Vahid oğlu - Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyi
124. Heydərova Nuranə Arif qızı - "Kaspi" liseyi
125. Hüseynov Əzizağa Fərid oğlu - "Kaspi" liseyi

**2.** *Aşağıda adları qeyd edilən XI sinif məzunları gümüş nişanla təltif olunsunlar:*

1. Səfərova Nuranə Daşqın qızı - Naxçıvan MR, Naxçıvan qızlar liseyi
2. Qurbanova Türkan Xaliq qızı - Naxçıvan MR, Naxçıvan qızlar liseyi
3. Quliyev İsgəndər Elnur oğlu - Naxçıvan MR, Naxçıvan şəhəri 2 nömrəli tam orta məktəb
4. Əliyeva Laləzər Elşən qızı - Naxçıvan MR, Naxçıvan şəhəri 7 nömrəli tam orta məktəb
5. Cahangirli Həsən Rəşid oğlu - Naxçıvan MR, Naxçıvan şəhəri 11 nömrəli tam orta məktəb
6. Rəsulova Səkinə Zahid qızı - Naxçıvan MR, Naxçıvan şəhəri 11 nömrəli tam orta məktəb
7. Məmmədova Jalə Məcnun qızı - Naxçıvan MR, Şərur rayonu Qorçulu kənd tam orta məktəbi
8. Babayeva Günəş Könül qızı - Naxçıvan MR, Şərur rayonu Tənənəm kənd tam orta məktəbi
9. Allahverdiyeva Elnarə Allahverdi qızı - Naxçıvan MR, Babək rayonu Kültəpə kənd tam orta məktəbi
10. Babayeva Aysun Əsəd qızı - Naxçıvan MR, Babək rayonu Güznüt kənd tam orta məktəbi
11. Əsgərov Əhməd Rasim oğlu - Naxçıvan MR, Ordubad şəhəri 3 nömrəli tam orta məktəb
12. Əsgərova Səma Məhərrəm qızı - Naxçıvan MR, Ordubad rayonu Aşağı Əylis kənd tam orta məktəbi
13. Nadirova Günay Əbilfəz qızı - Naxçıvan MR, Ordubad rayonu Dırnıs kənd tam orta məktəbi
14. Rzazadə Aysun Hüseyn qızı - Naxçıvan MR, Ordubad şəhər tam orta internat məktəbi
15. Əsgərli Toğrul İsgəndər oğlu - Naxçıvan MR, Ordubad şəhəri 1 nömrəli tam orta məktəb
16. Muradov Kazım Elşad oğlu - Naxçıvan MR, Şahbuz rayonu Badamlı qəsəbə tam orta məktəbi
17. Abbasov Tapdıq Hüseyn oğlu - Naxçıvan MR, Heydər Əliyev adına hərbi lisey
18. Ələkbərova Mədinə Əli qızı - Bakı şəhəri 60 nömrəli tam orta məktəb
19. Nurullayeva Selcan İlkin qızı - Bakı şəhəri 177 nömrəli tam orta məktəb
20. Kərimli Aydan Cəsarət qızı - Bakı şəhəri 196 nömrəli tam orta məktəb
21. Müslümova Sevinc Vahid qızı - Bakı şəhəri 234 nömrəli tam orta məktəb
22. Əliyev Əli Hidayət oğlu - Bakı şəhəri 238 nömrəli tam orta məktəb
23. Bağırzadə Aynur İlham qızı - Bakı şəhəri 297 nömrəli tam orta məktəb
24. Ələkbərli Əmir Elşən oğlu - Bakı şəhəri 314 nömrəli tam orta məktəb
25. Həsənov Tural Akif oğlu - Gəncə şəhəri 27 nömrəli məktəb-lisey
26. Şərəfxanlı Ərturqut Nəsimi oğlu - Sumqayıt şəhəri 11 nömrəli tam orta məktəb
27. Ramazanlı Murad Mahmud oğlu - Sumqayıt şəhəri 11 nömrəli tam orta məktəb
28. Əliyeva Aytac Rauf qızı - Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziya
29. Ramazanov Vüsal Elman oğlu - Mingəçevir şəhəri Təbiət-riyaziyyat və humanitar elmlər təmayüllü lisey
30. Mustafayeva Aytac Vüqar qızı - Mingəçevir şəhəri Təbiət-riyaziyyat və humanitar elmlər təmayüllü lisey
31. Sofiyeva Həmayə İbrahim qızı - Mingəçevir şəhəri 7 nömrəli tam orta məktəb
32. Əhmədov Vüsal Musa oğlu - Mingəçevir şəhəri Texniki-humanitar lisey
33. Mirzəzadə Cavid Ceyhun oğlu - Mingəçevir şəhəri Texniki-humanitar lisey
34. Cəfərov Rəvan Əli oğlu - Ağcabədi rayonu Cəfərbəyli kənd tam orta məktəbi
35. Salehova Gülşən Elçin qızı - Ağdaş şəhəri M.Şeyxzadə adına internat tipli texniki-təbiət və humanitar təmayüllü gimnaziya
36. Səmədov Murad Abdulla oğlu - Ağdaş rayonu Ləki qəsəbə 6 nömrəli tam orta məktəb
37. Əliyev Zəka Ziya oğlu - Astara rayonu Pensər kənd 2 nömrəli məktəb-lisey
38. Xuduyeva Rəşidə Nadir qızı - Bərdə rayonu Xanqaraqoyunlu kənd tam orta məktəbi
39. Rəhimli Aysel Rövşən qızı - Bərdə şəhəri 8 nömrəli tam orta məktəb
40. Əskərli Tahir Vüqar oğlu - Biləsuvar şəhəri M.İbrahimov adına bağça-məktəb-lisey kompleksi
41. Vəliyev Vəli Afət oğlu - Cəlilabad rayonu Şükürlü kənd tam orta məktəbi
42. Qasımzadə Xumar Əfqan qızı - Göyçay rayonu Qaraməryəm kənd tam orta məktəbi
43. Möhübova Yeganə Ağa qızı - İsmayıllı şəhəri 2 nömrəli tam orta məktəb
44. Abbaszadə Arzu Elçin qızı - İsmayıllı rayonu Talıstan kənd tam orta məktəbi
45. Babayev Rəşad Rüstəm oğlu - İsmayıllı şəhəri 6 nömrəli tam orta məktəb
46. İmaməliyev Ülvi Ənvər oğlu - Kəlbəcər rayonu 67 nömrəli tam orta məktəb
47. Tağıyev Ramazan Rövşən oğlu - Kürdəmir rayonu Köhnəbazar kənd tam orta məktəbi
48. Mirzəliyev Səyyad Alim oğlu - Kürdəmir rayonu Pirili kənd tam orta məktəbi
49. Bağırlı Amin Elçin oğlu - Lənkəran şəhəri 10 nömrəli tam orta məktəb
50. Nəsirov Fərid Afiq oğlu - Masallı rayonu Qızılağac kənd 1 nömrəli tam orta məktəb
51. Rəsulzadə Ziya Kazım oğlu - Oğuz rayonu Xaçmaz kənd 1 nömrəli tam orta məktəb
52. Siyahlı Alsu Elşən qızı - Oğuz rayonu Xaçmaz kənd 1 nömrəli tam orta məktəb
53. Mövsümzadə Aysel Mübariz qızı - Oğuz şəhəri 3 nömrəli məktəb-lisey
54. Mahmudlu Rəşid Elçin oğlu - Oğuz şəhəri 1 nömrəli tam orta məktəb
55. Mirzalıyeva Səbinə Samir qızı - Qəbələ şəhəri 4 nömrəli tam orta məktəb
56. Verdiyeva Səidə Akif qızı - Qusar şəhəri 2 nömrəli tam orta məktəbi
57. Sultanova Məltəm Mətləb qızı - Şabran şəhəri 4 nömrəli tam orta məktəb
58. Məmmədli Ayxan Ruslan oğlu - Şəki şəhəri 5 nömrəli tam orta məktəb
59. Hüseynov Nicat Rizvan oğlu - Şəki rayonu Bideyiz kənd tam orta məktəbi
60. Əliyarova Zərifə Rahim qızı - Siyəzən şəhəri 1 nömrəli tam orta məktəb
61. Babayeva Kimyəxanım Anar qızı - Ucar şəhəri 4 nömrəli tam orta məktəb
62. Nəsibzadə Qaya Bəxdiyar oğlu - Zəngilan rayonu 28 nömrəli tam orta məktəb
63. Əsgərov Köçəri Pərviz oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Akademik Zərifə Əliyeva adına lisey
64. Qədirova Səidə İlyas qızı - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Akademik Zərifə Əliyeva adına lisey
65. Abusəmədov Rəvan Nəcməddin oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Akademik Zərifə Əliyeva adına lisey
66. Baxşəliyeva Nigar Ülvi qızı - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki T.İsmayılov adına 6 nömrəli məktəb-lisey
67. Əliyev Nihat Rasim oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü lisey
68. Əliyeva Şəms Elbəyi qızı - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü lisey
69. İsmayılov Fərid Araz oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü lisey
70. Tağızadə İbrahim Aqil oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü lisey
71. Anzurov Fuad Elçin oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü lisey
72. Abışova Aygün Nasim qızı - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki İ.Hacıyev adına "Tərəqqi" texniki humanitar liseyi
73. Əfəndizadə Sabir Davud oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki İ.Hacıyev adına "Tərəqqi" texniki humanitar liseyi
74. Cəfərli Emin Fuad oğlu - BDU-nun nəzdindəki "Gənc istedadlar" liseyi
75. Ələkbərov Uğur Cəmil oğlu - BDU-nun nəzdindəki "Gənc istedadlar" liseyi
76. Şıxalizadə Tərlan Namiq oğlu - Heydər Əliyev adına Müasir Təhsil Kompleksi

**3.** Qızıl və gümüş nişana layiq görülmüş təhsilalanların adları oxuduqları məktəbin "Şərəf kitabı"na yazılsın.

**4.** Vətəndaşların müraciətləri ilə iş və kommunikasiya şöbəsi (Sahibə Hacıyeva) bu əmrin "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını və Nazirliyin internet saytında yerləşdirilməsini təmin etsin.

**5.** Əmrin icrasına nəzarət nazir müavini Məhəbbət Vəliyevaya həvalə olunsun.

**Emin ƏMRULLAYEV,**
**Azərbaycan Respublikasının Təhsil naziri**

*18 sentyabr 2020-ci il*

# “Təhsilin idarə olunması və insan kapitalının inkişafı”

## Müvafiq ixtisas üzrə beynəlxalq ikili diplom proqramının açılış mərasimi






Sentyabrın 18-də “2019-2023-cü illər üçün Azərbaycan Respublikasının ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” çərçivəsində maliyyələşən Azərbaycan Dövlət Pedaqoji Universiteti və ABŞ-ın Corc Vaşinqton Universitetinin (CVU) magistr pilləsində “Təhsilin idarə olunması və insan kapitalının inkişafı” ixtisası üzrə beynəlxalq ikili diplom proqramının onlayn açılış mərasimi keçirilib.

Mərasimdə Təhsil naziri Emin Əmrullayev, ABŞ-ın Azərbaycandakı səfiri Lee Litzenberg, ölkəmizin ABŞ-dakı səfiri Elin Süleymanov, ADPU-nun rektoru Cəfər Cəfərov, Corc Vaşinqton Universiteti Təhsil və İnsan İnkişafı Məktəbinin dekanı Michael Feuer, həmçinin Təhsil Nazirliyindən, Dövlət Proqramı İdarəetmə Qrupundan, ADPU-dan və CVU-dan digər səlahiyyətli nümayəndələr iştirak ediblər. Mərasimdə, həmçinin qeyd edilən beynəlxalq ikili diplom proqramına qəbul olmuş 25 tələbənin iştirakı da təmin olunub.

Mərasim zamanı Təhsil naziri və digər qonaqlar çıxışlar edərək tələbələri təbrik edib, proqramın yaradılması və ümumi proqram haqqında məlumat verib və yeni tədris ilində tələbələrə uğurlar arzulayıblar.

Tədbirdə tələbələr adından Vəfa Nazirova çıxış edərək öz təəssüratlarını bildirib.

# Ümumi təhsil müəssisələrində koronavirusla bağlı vəziyyətə dair

## Təhsil Nazirliyi məsələyə aydınlıq gətirir

Ölkəmizdə pandemiya ilə əlaqədar olaraq, 2020-2021-ci tədris ilində dərslər həm əyani, həm də distant formada tədris edilir. Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunun ümumi təhsil müəssisələrinin fəaliyyəti əyani olaraq həftədə 2 dəfə, digər şəhər və rayonlarda isə əyani formada həftədə 3 dəfə uyğunlaşdırılmış tədris planları əsasında təşkil edilir.

Respublika üzrə ümumi təhsil müəssisələrində bu günə olan məlumata əsasən, ümumilikdə ibtidai təhsil səviyyəsi (I-IV siniflər) üzrə təhsil alan 625394 şagirddən 7868 nəfərin (1, 26 faiz) valideyni övladının tədris prosesində əyani şəkildə iştirakından imtina etməsi ilə bağlı iltizam sənədi imzalayıb. Yeni tədris ilindən etibarən məktəblərə gələn işçi sayı (müəllim, texniki heyət və rəhbər heyət) 65460 nəfər olub.

Respublika ərazisində fəaliyyət göstərən məktəblərin binasına daxil olan bütün şəxslərin hərarəti yoxlanılır, 37.1-dən yuxarı olan şagirdlər və ya işçi heyəti məktəbə buraxılmır. 21 sentyabr 2020-ci il tarixində hərarəti 37.1-dən yuxarı olan şagird və işçi heyətinin sayı Bakı şəhərində 21, bölgələrdə isə 29 nəfər olub. Hərarəti yüksək olan şagird və işçi heyəti barədə tibb müəssisələrinə məlumat verilir, bu şəxslərin müvafiq qaydada test olunması nəzərdə tutulur.

21 sentyabr 2020-ci il tarixinə olan məlumata görə, dərs ili başlayandan bu günədək 95 şagird və 26 işçi heyəti olmaqla 121 nəfərdə koronavirus aşkarlanıb. Həmin şagirdlərin əksəriyyəti yuxarı siniflərdə təhsil aldıqları üçün ümumi təhsil müəssisələrinə gəlməmişlər. Bu şəxslər ümumilikdə 346 nəfərlə təmasda olmuşlar.

Bu günə olan məlumata əsasən, koronavirusa yoluxma ilə əlaqədar respublika ərazisində cəmi bir məktəbdə, Quba rayonu Qamqam kənd orta məktəbində 8 müəllimin virusa yoluxması səbəbindən əyani formada tədris dayandırılıb, distant formaya keçid edilib. Müəllimlər arasında kütləvi yoluxmanın səbəbi olaraq sosial məsafənin qorunmaması və şəxsi gigiyena vasitələrindən istifadə edilməməsi ehtimal olunur.

Bakıda müəllim və şagirdlərdə koronavirusun aşkar edilməsi səbəbindən 4 sinfin fəaliyyəti distant formaya keçirilib. Ötən günlər ərzində şagirdlər arasında məktəbdaxili yoluxma halına rast gəlinməyib. Qeydə alınmış yoluxmaların ailədaxili şəraitdə baş verməsi müəyyən edilib.

Təhsil Nazirliyi bütün şagirdləri, valideynləri, müəllimləri və işçi heyətini sosial məsafəni qorumağa, şəxsi gigiyenik vasitələrdən mütəmadi olaraq istifadə etməyə və sanitar-gigiyenik qaydalara əməl etməyə çağırır.




# 32-ci Beynəlxalq İnformatika Olimpiadasından 3 medal

Sinqapurda 32-ci Beynəlxalq İnformatika Olimpiadası təşkil edilib. 87 ölkə və 343 iştirakçının yarışdığı olimpiadaya məktəblilərimiz ADA Universitetindən virtual formatda qoşulublar.

Olimpiadanın 2 yarış günü ərzində şagirdlərə həll etmək üçün hər gün 3 alqoritmik məsələ olmaqla, 5 saat vaxt verilib.

Azərbaycan məktəbliləri sözügedən olimpiadada uğurlu nəticə əldə ediblər. Belə ki, Təhsil Nazirliyinin tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü liseyin XI sinif şagirdləri Abutalıb Namazov və Murad Eynizadə, Gəncə şəhəri M.Əzizbəyov adına 15 nömrəli tam orta məktəbin X sinif şagirdi Əziz Hüseynov bürünc medal qazanıblar.

Qeyd edək ki, şagirdlərimiz 1994-cü ildən etibarən bu müsabiqədə iştirak edir. Builki nailiyyətlərlə birgə bu günədək sözügedən olimpiadadan ümumilikdə 1 gümüş, 7 bürünc medal əldə edilib.

İnformatika fənni üzrə beynəlxalq olimpiadalara hazırlıq prosesi “Azercell Telekom” şirkətinin dəstəyi ilə həyata keçirilir.

# Təhsil naziri Göygöl, Goranboy rayon və Naftalan şəhər sakinlərini canlı videobağlantı vasitəsi ilə qəbul edəcək

Təhsil naziri Emin Əmrullayev 2 oktyabr 2020-ci il tarixində saat 15:00-da Göygöl, Goranboy rayon və Naftalan şəhər sakinlərini canlı videobağlantı vasitəsilə qəbul edəcək. Qəbulda həmin rayonlarda müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak edə bilərlər.

Videoqəbula yazılmaq istəyən vətəndaşlar 23-30 sentyabr (saat 18:00-dək) 2020-ci il tarixlərində Təhsil Nazirliyinin Telefon Məlumat Mərkəzinin 146-1 nömrəli telefonuna (“Qaynar xətt” xidməti) zəng etməklə və ya nazirliyin rəsmi saytının “Vətəndaşların qəbulu” bölməsinə daxil olmaqla *(http://edu.gov.az/az/contacts/request)* elektron qeydiyyatdan keçə bilərlər.

Videoqəbulun təşkil edilməsində əsas məqsəd vətəndaşların Təhsil Nazirliyinə müraciət imkanlarını müasir texnologiyalardan istifadə etməklə genişləndirmək, regionlarda yaşayanlara nazirliyin inzibati binasına gəlmədən vəzifəli şəxslərlə videobağlantı vasitəsilə birbaşa əlaqə imkanının yaradılmasıdır.

Vətəndaşlar videoqəbulun keçirildiyi otağa qəbula yazılanlar siyahısı və şəxsiyyəti təsdiq edən sənədlər əsasında buraxılacaqlar.

Qəbulun keçirildiyi yerdə müvafiq sanitariya-gigiyena normalarına əməl olunmalıdır. Videoqəbulda bir müraciətlə bağlı eyni vaxtda birdən artıq şəxsin iştirakına icazə verilmir.

Videoqəbul zamanı konfidensiallığı təmin etmək məqsədilə vətəndaşın qəbul otağında tək olmasına şərait yaradılacaq. Videoqəbulda vətəndaşın müraciəti ilə bağlı lazımi sənədlərin təqdim edilməsi zərurəti yarandıqda, ona həmin sənədləri birbaşa qəbulun keçirildiyi qurumun səlahiyyətli işçisinə və ya elektron formada təqdim etmək imkanı olacaq. Həmin sənədlər araşdırılması üçün Təhsil Nazirliyinə yönləndiriləcək.

Araşdırma tələb edən müraciətlərin cavablandırılması vətəndaşın qeyd etdiyi elektron ünvan vasitəsilə elektron formada, yaxud müraciət edənin xahişinə əsasən poçt ünvanı ilə yazılı və ya əlaqə telefonu vasitəsilə şifahi qaydada həyata keçiriləcək.

# Təhsil Nazirliyinin müraciəti

Sentyabrın 15-dən ölkəmizdə 2020-2021-ci tədris ilinə start verilib. Pandemiya ilə əlaqədar olaraq, dərslər həm əyani, həm də distant (məsafədən) formada təşkil edilir. Müəyyən edilmiş qaydalara əsasən, I-IV siniflər tədris ilinə əyani və distant (məsafədən), V-XI siniflər isə distant formada başlayıb.

2020-2021-ci tədris ilində ümumi təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin karantin rejimində təşkili Nazirlər Kabinetinin müvafiq Qərarı əsasında həyata keçirilir. Belə ki, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunun ümumi təhsil müəssisələrinin fəaliyyəti əyani olaraq həftədə 2 dəfə, digər şəhər və rayonlarda isə əyani formada həftədə 3 dəfə xüsusi tədris planlarına uyğun təşkil edilir.

Lakin sosial şəbəkələrdə bəzi özəl ümumi təhsil müəssisələrində şagirdlərin həftədə 5 dəfə əyani şəkildə tədrisə cəlbi ilə bağlı fikirlər səsləndirilir.

Bildiririk ki, bu, Nazirlər Kabinetinin tədrisin təşkili ilə bağlı müvafiq qərarlarına riayət edilməməsidir. Təhsil müəssisələrində tədrisin təşkili ilə bağlı bütün məsələlər Təhsil Nazirliyinin nəzarətindədir və belə hallar təsdiqini taparsa, müvafiq şəkildə tədbirlər görüləcək.

# "World Skills International" təşkilatına üzvlük çərçivəsində görüş

WSI təşkilatına üzvlük "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi" çərçivəsində görülən tədbirlərin məntiqi davamıdır







Sentyabrın 23-də Təhsil naziri Emin Əmrullayev "World Skills International" (WSI) təşkilatının rəhbər heyəti ilə onlayn formatda görüşüb.

Görüşün məqsədi Azərbaycanın WSI təşkilatına üzvlüyünün rəsmiləşdirilməsi çərçivəsində ölkənin qarşısında duran əsas prioritetlərin və üzvlüyün ölkə üçün yaradacağı imkanların müzakirəsindən ibarət olub.

Görüş zamanı WSI təşkilatına üzvlüyün "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi" çərçivəsində görülən tədbirlərin məntiqi davamı olduğu vurğulanıb.

Görüşdə həmçinin, Peşə Təhsili üzrə Dövlət Agentliyinin və Təhsil Nazirliyinin əməkdaşları da iştirak ediblər.

Qeyd edək ki, WSI dünyada peşə bacarıqlarını təbliğ edir və peşələrin Olimpiadası kimi tanınır. Azərbaycanın sözügedən təşkilatın 85-ci üzvünə çevrilməsi, cari ilin oktyabr ayında baş tutacaq Təşkilatın Ümumi Yığıncağına qatılması və beləliklə, üzvlüyün təsdiqlənməsi gözlənilir.

## Azərbaycan Respublikası Təhsil Nazirliyi Kollegiyasının 2019-cu il 13 mart tarixli KQ-06 nömrəli qərarı ilə təsdiq edilmiş "Peşə təhsili pilləsində təhsilalanların attestasiyasının aparılması Qaydası"nda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Təhsil Nazirliyi Kollegiyasının qərarı

"Elm haqqında" və "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 24 aprel tarixli 59-VIQD nömrəli Qanununun tətbiqi ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 may tarixli 196s nömrəli Sərəncamının 3-cü hissəsinin icrasını təmin etmək məqsədi ilə "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 16-cı hissəsini rəhbər tutaraq Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyası **qərara alır:**

**1.** Azərbaycan Respublikası Təhsil Nazirliyi Kollegiyasının 2019-cu il 13 mart tarixli KQ-06 nömrəli qərarı ilə təsdiq edilmiş "Peşə təhsili pilləsində təhsilalanların attestasiyasının aparılması Qaydası"nda dəyişiklik təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikası Təhsil Nazirliyi Aparatının Hüquq şöbəsinə (R.Hüseynov) tapşırılsın ki, bu qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

**3.** Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinə (P.Yusifov) tapşırılsın ki, bu qərardan irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsin.

**4.** Azərbaycan Respublikası Təhsil Nazirliyi Aparatının Vətəndaşların müraciətləri ilə iş və kommunikasiya şöbəsinə (S.Hacıyeva) tapşırılsın ki, bu qərarın peşə təhsili müəssisələrinə göndərilməsini, "Azərbaycan müəllimi" qəzetində dərc edilməsini və Nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**5.** Qərarın icrasına nəzarət nazir müavini İdris İsayevə həvalə edilsin.

**Emin ƏMRULLAYEV,**
**Kollegiyanın sədri,**
**Nazir**

*9 sentyabr 2020-ci il*

*Azərbaycan Respublikası Təhsil Nazirliyi Kollegiyasının 2020-ci il 9 sentyabr tarixli KQ-05 nömrəli qərarı ilə təsdiq edilmişdir*

## Azərbaycan Respublikası Təhsil Nazirliyi Kollegiyasının 2019-cu il 13 mart tarixli KQ-06 nömrəli qərarı ilə təsdiq edilmiş "Peşə təhsili pilləsində təhsilalanların attestasiyasının aparılması Qaydası"nda edilmiş DƏYİŞİKLİK

**1.** 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2.1. İlk peşə və texniki peşə təhsili səviyyəsi üzrə cari qiymətləndirmə tələbənin təhsil proqramında (kurikulumda) müəyyənləşdirilmiş məzmun standartlarının mənimsənilməsinə yönəlmiş fəaliyyətlərini izləmək, bu prosesdə qarşıya çıxan çətinlikləri müəyyən edib, aradan qaldırmaq məqsədi ilə aparılır. Təhsilalanın nailiyyətlərinin monitorinqi vasitəsilə tədrisin düzgün istiqamətləndirilməsi və məzmunun mənimsənilməsi təmin edilir, tədris prosesi tənzimlənir. Cari qiymətləndirmə zamanı tapşırıqvermə, müsahibə və müşahidə (tələbələrin yeni mövzuya olan maraq səviyyəsinin müəyyən edilməsi) üsullarından istifadə olunur.
Cari qiymətləndirmənin nəticələri jurnalda qeyd olunmur. Bu nəticələr barədə "Tələbə kitabçası"nda və "Müəllimin (təlim ustasının) cari qiymətləndirmə dəftəri"ndə yazılı qeydlər aparılır. Cari qiymətləndirmənin nəticəsi ilə bağlı müvafiq yazılı qeydlər (nəticələrin qısa təsviri) təhsilalanın peşə təhsili müəssisəsindəki fərdi qovluğunda saxlanılır.

2.2. Yüksək texniki peşə təhsili səviyyəsi üzrə cari qiymətləndirmə modul/fənn üzrə tələbənin semestr müddətində fəaliyyətinin qiymətləndirilməsidir və özündə dərsə davamiyyəti, tələbənin sərbəst işi və semestr ərzində nəzəri və praktiki dərslərdə topladığı balları əks etdirir. Tələbə semestr ərzində maksimum 10 bal davamiyyət (semestr ərzində modul/fənnin tədris saatlarının hər buraxılan 10%-nə 1 bal çıxılır), maksimum 10 bal sərbəst işə və maksimum 30 bal nəzəri və praktiki dərslərdəki nəticəsinə görə əldə edə bilər. Cari qiymətləndirmənin nəticələri jurnalda qeyd edilir.".

**2.** 3. 1-ci bənddə "Aralıq" sözü "İlk peşə və texniki peşə təhsili səviyyəsi üzrə aralıq" sözləri ilə əvəz edilsin.

**3.** 3.3.1-ci, 3.3.2-ci yarımbəndlərdə və 3.4-cü bənddə ismin müvafiq hallarında "modul" sözündən sonra "və istehsalat təlimi" sözləri əlavə edilsin.

**4.** Aşağıdakı məzmunda 3.8-ci bənd əlavə edilsin:

"3.8. Yüksək texniki peşə təhsili səviyyəsində bilik, bacarıq və səriştənin qiymətləndirilməsinin çoxballı sistemi tətbiq edilir. Tələbənin modul/fənn üzrə toplaya biləcəyi balın maksimum miqdarı 100-ə bərabərdir. Bu balların yarısı semestr ərzindəki fəaliyyətə əsasən cari qiymətləndirmədən, digər yarısı isə imtahanın nəticələrinə görə toplanır. İmtahan təlim nəticələri üzrə biliklərin qiymətləndirilməsi üçün nəzəri suallarla yanaşı səriştələrin qiymətləndirilməsi üzrə praktiki tapşırıqları da əhatə edir. İmtahanda qazanılan balların maksimum miqdarı 50-dir. Tələbənin imtahandan topladığı balın miqdarı 17-dən az olduqda tələbənin imtahan göstəriciləri semestr ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur.
Konkret modul/fənn üzrə semestr ərzində toplanmış balın yekun miqdarına görə tələbələrin biliyi aşağıdakı kimi qiymətləndirilir:

| | | |
|---|---|---|
| - 51 baldan aşağı | - "qeyri-kafi"; | - F |
| - 51-60 bal | - "qənaətbəxş" | - E |
| - 61-70 | - "kafi" | - D |
| - 71-80 | - "yaxşı" | - C |
| - 81-90 | - "çox yaxşı" | - B |
| - 91-100 | - "əla" | - A". |

**5.** 4.1-ci bənddə "Yekun" sözü "Peşə təhsili pilləsində yekun" sözləri ilə əvəz edilsin.

**6.** 4.3.1.6-cı yarımbənddə "İxtisas" sözü "İlk peşə və texniki peşə təhsili səviyyəsi üzrə ixtisas" sözləri ilə əvəz edilsin.

**7.** Aşağıdakı məzmunda 4.3.1.7-ci yarımbənd əlavə edilsin:

"4.3.1.7. Yüksək texniki peşə təhsili səviyyəsində ixtisas (sınaq) istehsalat işinin yekun nəticələri bu Qaydanın 3.8-ci bəndində əks etdirilmiş çoxballı qiymət şkalası (A,B,C,D,E,F) ilə ölçülür və qiymətlər jurnala və tələbənin "Tələbə kitabçası"na yazılır. Tələbənin toplaya biləcəyi maksimum balların miqdarı 100-ə bərabərdir. Bu balların yarısı tələbənin istehsalat təcrübəsi ərzində davamiyyəti və təlim nəticələri üzrə qiymətləndirilməsi, digər yarısı isə Komissiya tərəfindən ixtisas (sınaq) istehsalat işlərinin qiymətləndirilməsi nəticələrinə görə formalaşır.".

**8.** 4.8-ci bənddə "iştirak etməyənlərə" sözlərindən sonra ", həmçinin müxtəlif səbəblərdən peşə təhsili pilləsini başa vurmayan tələbələrə" sözləri əlavə edilsin.

Peşə təhsili

# Subbakalavr qruplarının dolması bu pilləyə olan tələbatın göstəricisidir

Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində tələbə qəbulu yekunlaşdı. Nəticələr həm də tələbatın göstəricisidir. Koreya təhsil standartları əsasında fəaliyyət göstərən müəssisə 2020-2021-ci tədris ilinə böyük yeniliklərlə başlayıb. Mərkəzin direktoru Rəşad Xanlarov “Azərbaycan müəllimi” qəzetinə müsahibəsində tələbə qəbulunun nəticələrindən və yeni dərs ilinə hazırlıqlarından danışıb.

## *Rəşad Xanlarov:*

## “Uzaqdan təhsil zamanı, ixtisasdan asılı olaraq müxtəlif onlayn simulyatorlardan istifadə etməyi nəzərdə tuturuq”



**Ruhiyyə DAŞSALAHLI**

*- 2020-2021-ci tədris ili üçün keçirilən qəbul prosesi hər yerdə yekunlaşdı. Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində vəziyyət necədir?*

- Bütün peşə müəssisələrində olduğu kimi, Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində də qəbul prosesi yekunlaşmaq üzrədir. Qeyd edək ki, digər peşə müəssisələri ilə müqayisədə Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi pilot mərkəz olduğundan qəbul prosesi 3 mərhələdə: iyulun 6-31-i, avqustun 10-24-ü və sentyabrın 4-14-ü tarixlərində həyata keçirilib. Üç mərhələ üzrə ümumilikdə 900 müraciətçi müsabiqədə iştirak edib.

*- 3 mərhələdə keçən qəbul prosesinin nəticəsi necədir? İxtisaslar üzrə yerlər dolub?*

- Bilirsiniz ki, ən müasir texniki baza ilə təchiz olunmuş mərkəzdə İKT, avtomobil, mexanika, sənayedə quraşdırma işləri, elektronika, elektrotexnika, avtomatika və inşaat istiqamətləri üzrə artıq 2019-cu ildən etibarən kadr hazırlığı aparılır. 2020-2021-ci tədris ili üçün bu istiqamətlərin “Torna və frezer dəzgahlarının operatoru”, “Avtomobil diaqnostikası və təmiri ustası”, “Sənayedə quraşdırma işləri üzrə usta”, “Elektronika ustası”, “Elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru”, “İnşaat ustası”, “Mebel ustası”, “Veb dizayner və proqram təminatçısı” və “Avtomatika üzrə usta” ixtisasları üzrə 1, “Nəqliyyat vasitələrinin texniki istismarı” və “Kompüter sistemlərində proqram təminatı” ixtisasları üzrə 3 illik (subbakalavr) təhsil üzrə ümumilikdə 640 vakant yer elan olunub. Bu il üçün nəzərdə tutulmuş qəbul planı üzrə qəbul göstəricisi keçən illə müqayisədə daha yüksək olub. Dövlət hesabına olan bütün ixtisaslar üzrə ayrılmış yerlər dolub. Vakant yerlər, sadəcə ödənişli əsaslarla təhsil həyata keçirilən bir neçə ixtisas üzrədir. Avtomobil və İKT istiqamətləri üzrə müraciət sayının çoxluğu artıq qəbulun birinci mərhələsindən müşahidə olunurdu. Qəbul prosesinin sonunda bu istiqamətlər üzrə, təhsil növündən asılı olmayaraq, boş yer qalmayıb. Subbakalavr qruplarının dolması da bu pilləyə olan tələbatın göstəricisidir.

*- İlk subbakalavr qrupu neçə nəfər olacaq?*

- 2020-2021-ci tədris ilindən etibarən Mərkəzdə subbakalavr dərəcəsi üzrə yüksək texniki peşə təhsil pilləsi üzrə təhsil verilir. İlkin olaraq “Nəqliyyat vasitələrinin texniki istismarı” və “Kompüter sistemlərində proqram təminatı” ixtisaslarına qəbul elan olundu. Hər ixtisas üzrə bir qrup fəaliyyət göstərəcək və hər bir qrupda artıq 20 nəfər təhsilalan yerləşdirilib. Növbəti illərdə mərkəzdə tədris olunan digər 6 ixtisas üzrə subbakalavr dərəcəsinin tətbiqi nəzərdə tutulub. Xüsusi ilə qeyd etmək istərdim ki, sözügedən 3 illik proqram da koreyalı mütəxəssislərlə birlikdə ölkənin sənayedə olan kadr ehtiyaclarına uyğun hazırlanıb. Bununla yanaşı, ilkin mərhələdə Azərbaycan Texniki Universiteti ilə razılıq əldə olunub. Razılığa əsasən, subbakalavrlarımız təhsilini AzTU-da davam etdirmək imkanı qazanıblar.

*- Dərsin formatı necə olacaq?*

- Mövcud karantin vəziyyətini nəzərə alaraq tədris ilinə ikinci və üçüncü kurs tələbələri ilə başladıq. Onlarla onlayn dərslər davam edir. 2020-2021-ci tədris ilinə yazılanlar üçün məsafədən təhsilin oktyabrın 1-dən başlanılması nəzərdə tutulub. Oktyabrın 15-dən karantin qaydalarına tabe olmaqla hibrid təlim formatı - həm onlayn və əyani dərslər tətbiq ediləcək.

“Microsoft” ilə əməkdaşlıq çərçivəsində “Microsoft Teams” proqramından onlayn dərslər təşkil etmək üçün istifadə etdik. Müvəffəqiyyətli təcrübəmizi digər peşə təhsili müəssisələrinin mühəndis və müəllim heyəti üçün təlimlər verərək bölüşdük. Bu məqsədlə xüsusi bir layihənin icrasına başladıq. Bu layihə onlayn dərslə yanaşı, onlayn platforma yaratmağı təmin edir. Beləliklə, həmkarlarımız internet üzərindən tədris materialı yaratmağı və ondan istifadə edərək dərs keçməyi öyrəndilər.

Bir çox insan zəif internet sürətinin məsafədən öyrənməyə mane ola biləcəyinə inanır. Bu vəziyyətdə onlayn dərsi qeyd etmək və saxlamaq mümkündür. Yəni, şagird hər hansı səbəbdən bir dərsi buraxıb, daha sonra proqrama qoşulmaqla video dərsi izləyə bilər. Yeri gəlmişkən, bütün dərsliklərimiz də rəqəmsallaşdırılıb və onlayn əldə edilə bilər. Distant təhsilin əyani təhsili tamamilə əvəz edə bilməyəcəyini başa düşürük, lakin mövcud pandemiya şəraitində bu üsul ən yaxşı həll yoludur.

Uzaqdan təhsil zamanı, ixtisasdan asılı olaraq müxtəlif onlayn simulyatorlardan istifadə etməyi nəzərdə tuturuq. İnformasiya və kommunikasiya texnologiyaları ilə əlaqəli ixtisaslar üçün kodlaşdırma şəklində praktiki hissə və ya qrafik dizaynın yaradılmasının da onlayn həyata keçirilməsi tədris prosesində heç bir problem yaratmır.

*- Mərkəzlə bağlı gözləntilər böyükdür. İnfrastruktur baxımından tələbələrin tələbatı tamamilə ödənilirmi? İstər verdiyi təhsil, istərsə də onlar üçün yaratdığı şəraitə görə.*

- Əlbəttə. Mərkəzdə Koreya ekspertləri tərəfindən hazırlanan və milli təhsil sisteminə uyğunlaşdırılan təhsil proqramları tətbiq olunur. Belə ki, mərkəzdə tətbiq olunan kurikulumlara əsasən təşkil olunan tədris prosesinin 60-70 faizi praktiki məşğələlərdən ibarətdir. Bu da təhsilalanların tədris olunan materialları daha yaxşı qavramasına və təcrübi bilik və bacarıqlara yiyələnməsinə imkan yaradır.

Mərkəz 30-dan artıq yerli və xarici şirkətlərlə dövlət-özəl tərəfdaşlıq modeli əsasında əməkdaşlıq edir. Qurulan əməkdaşlıq çərçivəsində Sənaye və İnnovasiyalar üzrə BDPTM-də tədris olunan kurikulumlara dair tərəfdaş şirkətlərin müvafiq şöbələri tərəfindən rəylər hazırlanır. Bunun əsas məqsədi isə tətbiq olunan tədris proqramının dinamik dəyişən əmək bazarına uyğunlaşdırılmasıdır. Bu isə tələbələrin peşəkar bacarıqlarının inkişafına, təcrübə proqramları və təkmilləşdirmə kursları keçirilməsinə, həmçinin məzunların tərəfdaş şirkətlərdə iş imkanları əldə etməsinə şərait yaradır.

Artıq ötən ilin məzunlarının bir qismi Abşeron Avtomobil Mərkəzi (“Mercedes Benz”), “İmprotex Motors” (“BMW”, “BMW Motorrad”, “MINI”, “Rolls-Royce” və “Yamaha”), STP, Bakı Gəmiqayırma Zavodu, “Şərq Motors”, “Bravo”, “Helind”, STDC, “Global İnteriors Group”, “Yeni Həyat” kimi şirkətlərdə işlə təmin olunublar. Bu əməkdaşlıq çərçivəsi həm genişləndirilir, həm də inkişaf etdirilir. Yeni tədris ilinin başlanması ilə əlaqədar işlə təmin olunan məzunlarımızla yeni təhsilalanlar üçün istiqamət məqsədli müsahibələr aparırıq. Onlar Sənaye və İnnovasiyalar üzrə BDPTM haqqında ümumi fikirlərini, burada təhsil almağın onlara qazandırdığı üstünlükləri bizimlə bölüşürlər. Həmçinin xüsusi bacarığı olan, lakin ixtisas seçimində tərəddüd edən şəxslərə peşə təhsilinin onlara nə qazandıracağı, nə üçün bu mərkəzi seçmələrinin üstünlük olduğunu göstərən video materiallar hazırlanır.

Şəraitə gəlincə, müasir təhsil kompleksi əsas tədris binası, 2 emalatxana, 2 yataqxana, idman meydançası və digər zəruri infrastrukturu özündə cəmləyib. Tədris prosesinin effektivliyinin artırılması üçün mərkəz 4300-dən çox texniki avadanlıqla təchiz olunub. Yataqxanaların hər birində 90 tələbənin yaşaması üçün zəruri olan şərait yaradılıb. Hər iki yataqxana binası yeni tədris ilindən etibarən fəaliyyətə başlayır.

*- Necə bilirsiniz, tələbələriniz daha çox məktəb məzunudur, yoxsa işləyən, pul qazandığı işin incəliklərini öyrənmək istəyənlər? Bəlkə peşə təhsil sənədinə ehtiyac duyan çoxdur?*

- Artıq ilkin mərhələdə keçirdiyimiz müsahibələr zamanı yeni tələbələrimiz haqqında ümumi fikir formalaşıb. Ötən ilin təcrübəsi də onu göstərdi ki, mərkəzdə təhsil almaq istəyənlər arasında tam orta təhsil müəssisələrini bitirmiş tələbələrlə yanaşı, müxtəlif yaş kateqoriyalarında, fərqli peşə sahibləri, eləcə də ali təhsilli və magistr pilləsinə çatmış şəxslər də mərkəzdə təhsil almağa çox maraqlıdırlar.

---

# Məqsədimiz regionda modern təhsil müəssisəsi yaratmaqdır




## Prioritet səriştə əsaslı, rəqabətqabiliyyətli kadrlar hazırlanmasıdır



**Namik MURADOV,**

*Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin direktoru, iqtisad üzrə fəlsəfə doktoru*

> “Bu gün ölkəmiz elə sürətlə inkişaf edir ki, kadr hazırlığı ölkənin sənaye, iqtisadi inkişafına uyğun inkişaf edə bilmir... Odur ki, peşə məktəblərinin gələcək inkişafı daim diqqət mərkəzində olmalıdır”. Möhtərəm Prezidentimiz İlham Əliyevin iyulun 27-də Emin Əmrullayevi Təhsil naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən söylədiyi bu fikirlər ölkənin peşə təhsili ictimaiyyəti üçün proqram sənədi olmuşdur. Peşə təhsili müəssisələri yeni tədris ilinə bu konseptual məqsəddən doğan böyük ruh yüksəkliyi ilə başlamışlar.

Yarım əsrə yaxın zəngin təhsil ənənələri olan, regionun əmək bazarında xüsusi yerə malik Qəbələ peşə təhsili müəssisəsi respublikada son 3 ildə yaradılmış 10 Dövlət Peşə Təhsil Mərkəzindən biri olmaq statusuna yüksəlmişdir.

Əlbəttə, hər bir təhsil subyektinin gücü onun maddi-texniki bazasının zənginliyi, kadr potensialının yüksək peşəkar tərkibdə olması ilə şərtlənir. Bu cəhətdən biz dövlət qayğısı ilə əhatə olunmuşuq.

İndi Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi az qala qabaqcıl xarici ölkələrin təhsil müəssisələri ilə müqayisə olunacaq kampusu - Təhsil Şəhərciyini xatırladır. Yüksək keyfiyyətli təhsil verilməsi üçün müxtəlif peşə istiqamətləri üzrə dövlət təhsil standartlarının bütün tələblərinə cavab verən zəngin infrastrukturumuzu bu ali dövlət qayğısının təzahürü hesab edirik. İkimərtəbəli və üçmərtəbəli tədris korpusları, tədris-istehsalat sahəsi, zəngin təlim-texniki vasitələrlə təmin olunmuş ümumi sayı 150-yə çatan auditoriyalar, fənn kabinetləri, laboratoriya və tədris emalatxanaları, konfrans zalı, kitabxana, iki böyük qazanxana, 80 yerlik yataqxana, tələbə və müəllim yeməkxanası, kompüter-informasiya mərkəzi, habelə, təlim məqsədləri üçün alınmış ağır və kiçik qabaritli kənd təsərrüfatı texnikaları, dəzgahlar, aparatlar, qaynaq qurğuları, iaşə avadanlıqları tələbə və mühəndis-pedaqoji heyətimizin ixtiyarındadır.

Tədris ilinə müvəffəqiyyətlə başlamışıq. Cari tədris ilində Mərkəzə tələbə qəbulu, demək olar ki, iki dəfə artırılmışdır. 21 ixtisas üzrə planlaşdırılan 740 nəfər tələbə qəbulu proqnozu 80 faizədək yerinə yetirilmiş, 500 nəfər tələbə sıralarına qəbul edilmiş və dərslərə başlamışlar. Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın ölkənin tədris müəssisələrində tədrisin təşkili ilə bağlı qarşıya qoyduğu vəzifələrə müntəzəm əməl edirik. Belə ki, hazırda kütləvi dezinfeksiya tədbirləri başa çatdırılmış, qruplarda tələbə sıxlığı göstəriciləri tənzimlənmiş, təhsilalanlara və təhsilverənlərə tibbi-profilaktik qaydalar izah olunmuş, auditoriyalarda ara məsafələri nizamlanmışdır. Dərs cədvəlləri vəziyyətə uyğun olaraq gündəlik və növbəli əsaslarla tərtib edilmiş, digər zəruri tədbirlər görülmüşdür.

Ötən dərs ilimiz bir sıra diqqətəlayiq nəticələrlə əlamətdar olmuşdur. Biz Almaniya və Koreya təcrübəsini fəaliyyətimizə gətirmək istəyirik. Bu, dual (ikili) təhsil proqramı deməkdir. İndi Avropa ölkələrində peşə təhsilinin 40 faizi nəzəri təlimlərə, 60 faizi qazanılmış biliklərin istehsalatda mənimsənilməsinə həsr olunur. Sınaqlar bu tənasübün əmək bazarı üçün olduqca müvəffəqiyyətli olduğunu sübut edir. Artıq Mərkəzimizdə belə bir texniki əməkdaşlığa başlanılmışdır. Almaniya ilə tərəfdaşlıq çərçivəsində ölkəmizdə seçilmiş 3 pilot rayondan biri bizik. Qarşıdakı illərdə bütün yaradıcılıq gücümüzü və texniki imkanlarımızı dual (ikili) peşə təhsili və təlimi üzrə regionda avanqard rola sahib olmağa fokuslamışıq.

Bizim üçün prioritet səriştə əsaslı, rəqabətqabiliyyətli kadrlar hazırlanması, onların əmək bazarında real yerinin müəyyən olunmasıdır. Bu məqsədlə ötən ilin axırlarında “Karyera Mərkəzi” yaratmışıq. Məzunlarımız, onların məşğulluq imkanları, işəgötürənlərlə sıx əməkdaşlıq qurulmuşdur. İxtisaslı fəhlə kadrlarından tutmuş hər bir məzunumuzun bacarıqlı istehsalat komandirləri səviyyəsinədək uzanan məzmunlu həyat yolunu izləmək, karyera inkişafında vəsilə olmaq bu Mərkəzin əsas devizidir.

Fəaliyyətimizin digər ana xəttini dövlət - özəl partnyorluğu təşkil edir. Yerli istehsal nümunəli brend məhsulları ilə tanınan Qəbələ “ASPİ Aqro“ Üzümçülük Məhdud Məsuliyyətli Cəmiyyəti, “Gilan Holdinq Dairy“ İstehsal Müəssisəsi, “Oafqaz“ Otellər Şəbəkəsi tələbələrimizin uğurlu təcrübəsinin və gələcək daimi məşğulluğunun ünvanına çevrilmişdir. Məzunlarımız burada böyük həvəslə çalışmaqdadırlar.

Bu məqsədlə həm də Qəbələdə fəaliyyət göstərən sahibkarların və işəgötürənlərin geniş dairəsini əhatə edən “Koordinasiya Şurası“da yaratmışıq. Onların tələb və təklifləri, təhsil və kadr hazırlığı prosesində iştirakı, istehsalat təcrübələrinə, habelə məzunların attestasiyasına bilavasitə cəlb olunmaları vəhdət halında Təhsil Mərkəzimizin uğurlarını artırmaqdadır.

Biz tələbələri təkcə kamil peşə sahibləri kimi görmürük, onların həm də şəxsiyyətyönlü, biznes təfəkkürlü, yaradıcı, novator yetişdirilməsini başlıca prioritet sayırıq. Mərkəzdə yaradılmış “Biznes inkubatoru” məhz bu niyyətimizi əks etdirir. Bu, “qara qızılı insan kapitalına çevirək” - deyən dövlət başçımızın qeyri-neft sektorunun inkişafına bu yolla dəstək vermək məramımızdan irəli gəlmişdir.

Biz gələcəyə böyük inamla baxırıq. Bu əzmi bizdə ölkə rəhbərliyi, Təhsil Nazirliyinin yeni proqram sənədləri, Peşə Təhsili üzrə Dövlət Agentliyinin yeni islahatlara start verməsi ikiqat artırmışdır. Həmin dəstək və qayğıdan ruhlanaraq Mərkəzimizin inkişafı üçün Layihə - konsepsiya hazırlayırıq. Məqsəd belədir: Mərkəzin simasında ölkədə və regionda öz seqmentində lider mövqeyinə sahib, modern peşə məktəbinin (MPM) nümunəsini yaratmaq. Demək olar ki, bütövlükdə dövlət - biznes əməkdaşlığına əsaslanan bu layihə öz proqram müddəalarını “Azərbaycan Respublikasında Peşə Təhsili və Təliminin İnkişafı üzrə Strateji Yol Xəritəsi”ndən götürmüşdür.

Layihə üzrə proqnozlaşdırılan gözləntilərimiz yerli turizmin inkişafına töhfələr, iş yerlərində istehsalat təcrübələrinin təşkili, məzunların gələcək real məşğulluq imkanlarının təmin olunmasıdır. Layihənin ölçülə bilən meyarları qismində regionda peşə cəlbediciliyinin hazırkı 600-700 nəfərdən 1000 nəfərədək yüksələcəyini, peşə təhsilinin yerli əmək bazarı üçün spesifik olan turizm və aqrar sektorlar üzrə ixtisaslaşacağını, habelə Mərkəzin stabil gəlirlər indeksinin formalaşacağı təqdirdə kollektivin sosial rifahının əhəmiyyətli dərəcədə yaxşılaşdırılacağını düşünürük. Nəticə indikatorlarının isə işəgötürənlərin peşə təhsilinə və təliminə tam inteqrasiya olunmasında, bir sözlə, peşə təhsilində bütün parametrlər üzrə keyfiyyət dəyişikliyində MPM-in lokomotiv rola sahib olmasında əks olunacağında görürük.

Konsepsiya - layihənin reallaşacağı təqdirdə Təhsil Mərkəzinin dövlətdən asılılığı minimuma endirilməklə günün çağırışlarına cavab verə bilən modern bir məktəbin nümunə modeli yaradılmış olacaqdır.

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi 2020-2021-ci tədris ilinə belə bir zəngin proqramla gəlmişdir. Ümidvarıq ki, qarşıdakı illərdə ölkənin sənaye və iqtisadi inkişafına layiqli töhfələr verə biləcəyik.

# Hüquqi sferada birgə kadr hazırlığı və əməkdaşlıq

## BDU ilə Qazax Milli Universiteti arasında ikili diplom proqramı

Bakı Dövlət Universitetinin (BDU) rektoru Elçin Babayev, hüquq fakültəsinin dekanı Əmir Əliyev Qazaxıstanın Əl-Fərabi adına Qazax Milli Universitetinin rektorluğunun genişləndirilmiş onlayn iclasında iştirak ediblər.

Əl-Fərabi adına Qazax Milli Universitetinin rektoru Qalimkair Mutanov tədbiri giriş sözü ilə açaraq BDU ilə birgə kadr hazırlığının, universitetlərarası ikili diplom proqramının əhəmiyyətindən bəhs edib. Bildirib ki, Azərbaycan və Qazaxıstan dəniz və enerji ölkələri olaraq, istər Xəzəryanı, istərsə də beynəlxalq müstəvidə inkişaf etmiş ölkələr sırasındadır. Bu səbəbdən hüquqi sferada birgə kadr hazırlığı və əməkdaşlıq çox müsbət nəticələr verəcəkdir. O, hər iki ölkənin bu istiqamətdə böyük elmi bazasının olduğunu vurğulayıb.

BDU-nun rektoru E.Babayev ikili diplom proqramının dost və qardaş ölkələr olan Azərbaycan və Qazaxıstan arasında ilk ikili diplom proqramı olduğuna diqqət çəkib. Müqavilənin hər iki ölkənin ilk və aparıcı təhsil müəssisələri olan BDU və Əl-Fərabi adına Qazax Milli Universiteti tərəfindən imzalanmasını yüksək qiymətləndirib.

E.Babayev BDU-nun hüquq fakültəsində "Dəniz və enerji hüququ" sahəsində elmi məktəbin formalaşdığını, altı ildir ki, bu sahədə ingilis dilində uğurla kadr hazırlığının həyata keçirildiyini bildirib. "Dəniz və enerji hüququ" üzrə tədris və elmi bazanın qurulmasında, o cümlədən müəllim heyətinin formalaşmasında ABŞ-ın Tüleyn Universiteti ilə əməkdaşlığı xüsusi vurğulayan rektor həmin universitetlə birgə beynəlxalq konfranslar keçirildiyini deyib. Tüleyn Universitetinin dəstəyi ilə hüquq fakültəsində "Dəniz və enerji hüququ" Mərkəzi yaradıldığını deyən E.Babayev bu gün də əməkdaşlığın davam etdiyini, yeni layihə və proqramlar haqqında danışıqların aparıldığını qeyd edib.

İclasın sonunda BDU və Əl-Fərabi adına Qazax Milli Universiteti arasında hüquq fakültəsində "Dəniz və enerji hüququ" magistratura ixtisaslaşması üzrə ikili diplom proqramı üzrə kadr hazırlığı sahəsində müqavilə imzalanıb.

# Birgə elmi tədqiqatlar və ortaq layihələr üçün geniş imkan

## BMU ilə Pakistanın universiteti arasında ilk beynəlxalq onlayn seminar




Bakı Mühəndislik Universiteti (BMU) və Pakistanın (Karaçi) Sir Syed Mühəndislik və Texnologiya Universiteti arasında imzalanmış anlaşma memorandumuna əsasən adıçəkilən universitetlərin riyaziyyat kafedraları "Riyaziyyatda sərhədlər" adlı birgə beynəlxalq onlayn elmi seminar keçirib.

Seminar BMU-nun riyaziyyat kafedrasının müəllimi Süheyla Bəhlulzadə və Sir Syed Mühəndislik və Texnologiya Universitetindən İngila Rahimin moderatorluğu ilə baş tutub.

BMU-nun tədris işləri üzrə prorektoru, professor Həmzağa Orucov universitet rəhbərliyi adından seminar iştirakçılarını salamlayıb. O, koronavirus pandemiyasının qlobal problemlər yaratdığı dövrdə belə bir seminarın ərsəyə gəlməsini yüksək qiymətləndirib və seminarın təşkilatçılarına təşəkkür edib.

Azərbaycanın müstəqilliyini tanıyan ilk 3 ölkədən birinin Pakistan olduğunu qeyd edən prorektor ölkələrimiz arasında beynəlxalq səviyyədə mədəni, iqtisadi və elmi sahələrdə geniş əlaqələrin mövcudluğunu dilə gətirib. O, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində Pakistan dövlətinin tutduğu qətiyyətli və prinsipial mövqeyin xalqımız tərəfindən həmişə böyük rəğbətlə qarşılandığını bildirib.

H.Orucov seminarı universitetlərimiz arasında elm və təhsil sahəsində yarana biləcək əməkdaşlığın başlanğıcı kimi dəyərləndirib. Prorektor bu əlaqələrin qurulmasının gələcəkdə birgə elmi tədqiqatların və ortaq layihələrin həyata keçirilməsinə geniş imkanlar açacağına, həmçinin tərəflərin təhsil sahəsindəki təcrübə mübadiləsindən faydalı nəticələr əldə edəcəyinə ümidvar olduğunu bildirib.

Sir Syed Mühəndislik və Texnologiya Universitetinin prorektoru, professor Vali Uddin elmi seminarın faydalı nəticələrinin olacağını bildirib. O, təmsil etdiyi universitetin Pakistanda mühəndislik texnologiyaları sahəsində başlıca rol oynadığını söyləyib. Universitet tədqiqatçılarının tez-tez elmi seminarlarda iştirak etdiyini deyən prorektor bu seminar vasitəsilə riyaziyyatda yeni sərhədlərin araşdırılacağına əminliyini ifadə edib. Vali Uddin bu əməkdaşlığın BMU-nun digər kafedraları ilə də davam etdirməsinin vacibliyini dilə gətirib və seminarın gələcək əməkdaşlığa müsbət təsir göstərəcəyini vurğulayıb.

Seminarda BMU-nun riyaziyyat kafedrasının müdiri, dosent Rakib Əfəndiyev "Spektral analizin düz və tərs məsələləri", Sir Syed Mühəndislik və Texnologiya Universitetinin riyaziyyat kafedrasının müdiri, professor Rəşid Kamal Ansari isə "Modulların təsnifatında bəzi funksiyalar və onların rolu" mövzularında təqdimatlarla çıxış ediblər.

Daha sonra seminar təqdimatlar ətrafında müzakirələrlə davam edib.

# Proses şəffaf, qərar ədalətli

## 782 tələbənin köçürülməsinə razılıq verildi




⇦ Əvvəli səh.1

Niyazi RƏHİMOV

### "Məqsədim dövlətimizi, xalqımızı xaricdə layiqincə təmsil etməkdir"

Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər fakültəsinə köçürülən Rəvan Mehdiyev bu sistemdən razı qaldığını bildirir. O, ötən il Azərbaycan Dövlət Pedaqoji Universitetinin tarix müəllimliyi ixtisasına qəbul olunduğunu, lakin təhsilini başqa ixtisasda davam etdirməyi arzuladığını deyir: "Köçürülməkdə məqsədim dövlətimizi, xalqımızı xaricdə layiqincə təmsil etmək, ölkə Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi xarici siyasətə dəstək olmaqdır. Mən və mənim kimi yüzlərlə gəncə bu imkanı yaratdığına görə Təhsil Nazirliyinə təşəkkürümü bildirirəm. Qeyd etmək istəyirəm ki, sistemdən çox razıyam. Bu sistem çox rahat və ədalətli idi. Cavablar da tez məlum oldu. Proses zamanı heç bir maneə ilə rastlaşmadım.

### "Doğmalarımdan uzaqda yaşamaq təhsilimi vətənimizdə davam etdirməyimə səbəb oldu"

İsmayıl Məmmədzadə *transfer.edu.az* saytı vasitəsilə xaricdən ölkəmizdəki universitetə köçürülənlərdəndir. O, bizimlə söhbətində bildirdi ki, Litvanın Kaunas şəhərində yerləşən Vitautas Maqnus Universitetində təhsil alırmış. İndi təhsilini doğma ölkəmizdə - Korporasiya Universitetində davam etdirəcək. O, köçürülməsinin səbəbini belə izah edir: "Həm doğmalarımdan uzaqda yaşamaq, həm də ailəmizdəki maddi çətinliklər təhsilimi vətənimizdə davam etdirməyimə səbəb oldu. Qərar verdim ki, ölkəmizdəki ali məktəblərdən birinə köçürülüm. Şükürlər olsun ki, arzuma çatdım. Özü də çox asanlıqla. Sayta daxil oldum və sorğunu göndərdim. Bir müddətdən sonra Təhsil Nazirliyindən müsbət cavab aldım. Bu sistem vasitəsilə ailəmiz həm maddi yükdən qurtardı, həm də mən təhsilimi əzizlərimin yanında davam etdirmək arzusuna çatdım". İsmayıl Məmmədzadə belə bir imkanı yaratdığına görə Təhsil Nazirliyinə təşəkkürünü bildirir.

### " Milli Konservatoriyada təhsil almağı uşaqlıqdan arzulayırdım"

Səltənət Bağırova da köçürülən tələbələrdəndir. O, Gəncə Dövlət Universitetinin musiqi müəllimliyi ixtisasından Azərbaycan Milli Konservatoriyasına köçürülüb. Konservatoriyada təhsil almağı uşaqlıqdan arzuladığını deyir: "Milli Konservatoriyada təhsil almağı uşaqlıqdan arzulayırdım. Bu gün arzuma çatdığım üçün özümü çox şanslı, xoşbəxt hiss edirəm. Mənə bu hissləri yaşatdığına görə Təhsil Nazirliyinə təşəkkürümü bildirirəm. Düşünürəm ki, Nazirlik mükəmməl bir sistem yaradıb. Heç bir əziyyət çəkmədən, şəffaf və obyektiv şəkildə köçürüldüm". Səltənət Bağırova gənclərə yaradılan şəraitdən maksimum istifadə edəcəyini, etimadı doğruldacağını da sözlərinə əlavə edib.

### "Proses çox şəffaf və operativ həyata keçirildi"

Xəzər Universitetindən İqtisad Universitetinə köçürülən İsmayıl Əliyev də proseslə bağlı öz fikirlərini bizimlə bölüşüb. Xəzər Universitetinin kompüter mühəndisliyi ixtisasında təhsil aldığını və builki köçürülmədə iştirak edərək Azərbaycan Dövlət İqtisad Universitetinə köçürüldüyünü deyir: "Xəzər Universitetində dərslərimiz ingilis dilində keçirilirdi. Bu, məndə müəyyən çətinliklər yaradırdı. Buna görə də qərar verdim ki, təhsil aldığım universiteti dəyişim. Bu məqsədlə *transfer.edu.az* saytına daxil oldum və müraciət etdim. Müraciətimə müsbət cavab verdilər. Proses çox şəffaf və operativ həyata keçirildi".

- Mən və mənim kimi yüzlərlə gəncə bu imkanı yaratdığına görə Təhsil Nazirliyinə təşəkkürümü bildirirəm.
- Qərar verdim ki, ölkəmizdəki ali məktəblərdən birinə köçürülüm. Şükürlər olsun ki, arzuma çatdım.
- Düşünürəm ki, Nazirlik mükəmməl bir sistem yaradıb. Heç bir əziyyət çəkmədən, şəffaf və obyektiv şəkildə köçürüldüm.
- Qərar verdim ki, təhsil aldığım universiteti dəyişim. Bu məqsədlə *transfer.edu.az* saytına daxil oldum və müraciət etdim. Müraciətimə müsbət cavab verdilər. Proses çox şəffaf və operativ həyata keçirildi.

# MDU-da təqaüdə ayrılan iki qocaman müəllimlə görüş

Mingəçevir Dövlət Universitetində (MDU) iki qocaman müəllimin təqaüdə ayrılması münasibətilə tədbir keçirilib. Mövcud şərtlər nəzərə alınmaqla açıq hava şəraitində təşkil olunan tədbir MDU-nun mühəndislik fakültəsinin müəllimləri Əli Məmmədov və Mirzə Gumayevə həsr olunub.



MDU-dan bildirilib ki, ali məktəbin rektoru Şahin Bayramov uzunmüddətli əmək fəaliyyəti olan mütəxəssislərin zəngin təcrübəsindən faydalanmağın əhəmiyyətindən danışıb, hər iki pedaqoqun universitetin yaradılmasında və inkişafında mühüm xidmətlər göstərdiyini vurğulayıb.

Təqaüdə ayrılan hər iki müəllimin universitetdə ali təhsilli kadrların hazırlanmasında böyük əməyi olduğunu qeyd edən Ş.Bayramov onların yetirməsi olan çoxsaylı məzunun hazırda cəmiyyət həyatının inkişafında fəal iştirak etdiyini bildirib.

Qocaman pedaqoqların 60 ilə yaxın müəllimlik fəaliyyətləri dövründə dövlətə və xalqımıza sadiq vətəndaş yetişdirilməsində yaxından iştirak etdiklərini vurğulayan rektor hər iki şəxsi zəngin təcrübəyə malik təhsil işçisi və Mingəçevir şəhərinin ictimai-siyasi həyatında fəal rol oynayan ziyalı kimi xarakterizə edib.

Universitetin professor-müəllim və inzibati-texniki heyət üzvləri, tələbələri, magistrantları və məzunları adından təşəkkürünü çatdıran Ş.Bayramov yorulmaz, səmərəli və nümunəvi fəaliyyətləri ilə hər iki şəxsin sözün əsl mənasında müəllim adını ucaltdıqlarını bildirib. Pedaqoqlara cansağlığı və uzun ömür arzulayan rektor onları universitetlə əlaqələri qoruyub saxlamağa, keçiriləcək tədbirlərdə fəal iştirak etməyə və MDU-nun növbəti mərhələdə də inkişafına töhfələr verməyə dəvət edib.

Qocaman müəllimlərə və ağsaqqal ziyalılara göstərilən yüksək diqqətə görə ölkə rəhbərliyinə təşəkkürlərini bildirən Ə.Məmmədov və M.Gumayev müəllim öz həyatlarını təhsilə həsr etdiklərindən fəxarət hissi keçirdiklərini qeyd ediblər. Universitetin keçdiyi inkişaf yolu barədə danışan hər iki pedaqoq MDU-nun yaxın gələcəkdə yeni dövrün tələblərinə uyğun inkişaf etməsi üçün ciddi zəminlərin olduğunu vurğulayıblar. Onlar universitetin mövcud infrastrukturunun daha da inkişaf etdirilməsini və gələcəkdə doktorantura səviyyəsi üzrə də mütəxəssis hazırlığının həyata keçirilməsini arzuladıqlarını bildiriblər.

Tədbirdə təqaüdə ayrılan Əli Məmmədova və Mirzə Gumayevə MDU-nun fəxri fərmanı və xatirə hədiyyələri təqdim olunub.

# Arsak toponiminin elmi mənşəyi ilə bağlı canlı vebinar keçirilib

Sentyabrın 23-də Təhsil Nazirliyinin təşkilatçılığı ilə Arsak toponiminin elmi mənşəyinə dair onlayn vebinar təşkil edilib. Vebinarda Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun elmi işçisi Ramin Əlizadə və media nümayəndələri iştirak edib.

Vebinarda çıxış edən Ramin Əlizadə Arsak toponiminin elmi mənşəyi barədə ətraflı məlumat verib. Bildirib ki, əslində Arsak adı Sak etnonimindən yaranıb, doğru tələffüzü Ərsak olmuş, mənası isə “Sak əri, ərəni” deməkdir. Orta əsrlər dövründə Alban apostol kilsəsinin mərkəzi olan Gəncəsər məbədinin kitabəsində Alban-Xaçın knyazı Həsən Cəlal “Uca və böyük Ərsak ölkəsinin hökmdarı, Alban vilayətinin çarı Böyük Həsənin nəvəsi, Vaxtanqın oğlu” kimi yad edilir. Bu kitabə onun əcdadlarının qədim türk boyuna mənsub olan Ərsak soyundan olmasını bir daha təsdiq edir.

Ramin Əlizadənin sözlərinə görə, XVIII əsrdə Qarabağın dağlıq hissəsində yaşayan Alban xristian məlikləri də I Pyotra və II Yekaterinaya yazdıqları məktublarında özlərini “Arşaki soyundan olan Alban türkləri” adlandırıblar. Arsak adı bir çox mənbələrdə Arşaki kimi də xatırlanır. Sak etnonimi Cənubi Qafqaz regionunda, o cümlədən Azərbaycan ərazisində əsasən yaylaq-qışlaq maldarlığı, dəmyə əkinçiliyi və atçılıqla məşğul olan türk boylarına verilmiş ümumi addır. Azərbaycanın şimalında qədim yazılı mənbələrdə bəhs olunan Sakasena, Balasakan (Sak düzü), Maskut (Massaget) toponimləri, hazırda isə Azərbaycan Respublikasında Şəki şəhərinin, Zaqatala rayonunun, Zəngəzurda Sisakan (Sisian) rayonunun, Şəki kəndinin adları məhz Sak türklərinin adı ilə bağlı olaraq meydana gəlib. Loru-Pəmbək ərazisində Gözəldərə kəndinin türksoylu boylarından biri Ərsaklılar adı ilə tanınırdı.

Ramin Əlizadə diqqətə çatdırıb ki, Ərsak adı ermənicə təhrif olunmuş “Artsax” formasında sonradan elmi dövriyyəyə daxil edilib.

Sonra vebinar iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

# Azərbaycanın 3 şəhəri YUNESKO-nun təhsil şəbəkəsində

Azərbaycanın 3 şəhəri — Bakı, Gəncə və Qəbələ YUNESKO-nun həyatboyu təhsil sahəsində aparıcı qurumu olan Öyrənən Şəhərlər üzrə Qlobal Şəbəkəyə üzv seçilib.

Şəhərlərimizin qeyd olunan şəbəkəyə üzv olmaq prosesi YUNESKO üzrə Azərbaycan Milli Komissiyasının Daimi Katibliyinin təşəbbüsü və təşkilatçılığı, Təhsil Nazirliyinin dəstəyi, YUNESKO yanında Daimi Nümayəndəliyimiz və aidiyyəti icra hakimiyyəti orqanlarının iştirakı ilə həyata keçirilib.

Qeyd edək ki, YUNESKO-nun Öyrənən Şəhərlər üzrə Qlobal Şəbəkəsi həyatboyu təhsil üzrə mühüm layihələrdən biri hesab olunur. YUNESKO-nun Həyatboyu Təhsil üzrə Qlobal Şəbəkəsinin məqsədi üzv şəhərlər arasında təhsil sahəsində təcrübə mübadiləsi aparmaq, şəhərlərin öyrənmə üzrə inkişaf prosesinə dəstək olmaq, inklüzivlik, rifah və dayanıqlı inkişafı təbliğ etmək, təhsilin keyfiyyətini artırmaqdan ibarətdir. Hazırda dünya üzrə 64 ölkədən 230 şəhər bu Şəbəkənin üzvüdür.










# Qeyri-formal və informal yollarla əldə edilmiş səriştələrin tanınması üzrə Təlim Proqramı

Qeyri-formal və informal yollarla əldə edilmiş səriştələrin tanınması üzrə beynəlxalq ekspertin iştirakı ilə iki günlük onlayn təlim proqramı təşkil edilib.

Proqram Avropa İttifaqı, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı,Təhsildə Keyfiyyət Təminatı Agentliyi və Peşə Təhsili üzrə Dövlət Agentliyi tərəfindən həyata keçirilib.

Proqram çərçivəsində peşə təhsili mütəxəssisləri, özəl sektor nümayəndələri və sahə üzrə peşəkarlar bir araya gətirilib. Proqram təlim, bilik və bacarıqlarının rəsmiləşdirilməsini istəyən vətəndaşlar üçün nəzəri, həmçinin praktik qiymətləndirmə prosesinin təşkilinə dair addımları əhatə edib. Bu qiymətləndirmələr aparıldıqdan sonra vətəndaşlar iş tapmaq, yaxud karyeralarını yeni mərhələyə daşımaq şanslarını artırmağa kömək edəcək sertifikatlar alacaqlar.

Qeyri-formal və informal səriştələrin tanınması üzrə təşviq fəaliyyətlərinin Azərbaycan əmək bazarında bacarıqlı işçi qüvvəsi üçün yeni imkanlar açacağı gözlənilir.

İlk imtahan bu ay, Təhsildə Keyfiyyət Təminatı Agentliyi və tikinti materialları istehsalı üzrə beynəlxalq “Knauf” şirkətinin dəstəyi ilə quru inşaat üzrə biliklərini rəsmiləşdirmək istəyən namizədlər üçün Gəncədə həyata keçiriləcək. İmtahan zamanı Təhsildə Keyfiyyət Təminatı Agentliyi nümayəndəsinin sədrlik etdiyi xüsusi komissiya tərəfindən qiymətləndirilmə aparıldıqdan sonra yüksək nəticə göstərmiş namizədlər sertifikatla təltif olunacaqlar.

İmtahan öncəsi keçirilən bu təlim proqramı Avropa İttifaqının maliyyələşdirdiyi, BMTİP və Peşə Təhsili üzrə Dövlət Agentliyinin birgə icra etdiyi Azərbaycanın peşə təhsili və təlimi sisteminin daha da gücləndirilməsi və müasirləşdirilməsi məqsədi ilə həyata keçirilən “Gəncədə Sənaye üzrə Regional Peşə Kompetensiya Təhsili Mərkəzinin Yaradılmasına dəstək” layihəsi çərçivəsində təşkil edilib.



# Direktorluğa namizədlər 500 yer uğrunda

## 1300 nəfərdən çox namizəd vakant yer tutmaq hüququ əldə edib

⇦ Əvvəli səh.1

**Ruhiyyə DAŞSALAHLI**

“Ən çox verilən suallar və cavabları, izahlı test tapşırığı nümunələri, test imtahanı və müsahibə mərhələsi üzrə müsabiqə proqramını genişləndirərək sayta yerləşdirilib. Hər sual proqram üzrə bir və ya bir neçə ədəbiyyatı əhatə edir. Məsələn, məktəbəhazırlıq qruplarının təşkili qaydaları ilə bağlı bir sual izahı ilə birlikdə orada öz əksini tapıb. Deyə bilərəm ki, qatılmaq istəyən namizədlər üçün hər cür şərait yaradılıb ki, bu müsabiqədə iştirak etsin və uğur qazansınlar. Biz də maraqlıyıq ki, daha səriştəli, yüksək bilik və bacarıqlara malik namizədlər müsabiqədə uğur qazansınlar”.

### MİQ-də yerləşdirmə başa çatdı

Müəllimlərin işə qəbulu müsabiqəsində isə son mərhələyə - müsahibə mərhələsinə hazırlıqlar gedir. Artıq əlavə yerləşdirmə də başa çatıb və uğur qazanan namizədlər müddətli müqavilələrlə seçdikləri məktəblərdə işə başlayıblar. E.Bağırov bildirib ki, işə qəbul müsabiqəsinin nəticələrinə əsasən 6417 namizəd işə qəbul olunub: “Müsabiqənin əsas mərhələsində 5066 namizəd vakant yer tutmaq hüququ qazanıb. Müsabiqənin əlavə yerləşdirmə mərhələsində isə əsas mərhələdə vakant yer tuta bilməyən namizədlər iştirak edib və 1351 namizəd vakant yer tutub”.

Bu il müsabiqəyə çıxarılan vakant yerlərin sayının artdığını vurğulayan E.Bağırov təkcə son vakansiya seçiminə 1000-dən artıq yer çıxarıldığını deyib: “Əvvəlki illərdən fərqli olaraq, bu il müsabiqəyə daha çox vakant yer çıxarılıb. 2018 və 2019-cu illərdə müəllimlərin işə qəbulu müsabiqəsinin əsas vakansiya seçimi mərhələsinə 7200-7300 vakant yer çıxarılırdısa, bu il bu rəqəm 8321 təşkil edib. Ötən illərlə müqayisədə bu göstərici 14 faiz daha çoxdur. Müəllimlərin işə qəbulu üzrə əlavə yerləşdirmə mərhələsinə namizədlərə ilk turda elan edilib ki, boş vakansiyalardan əlavə, 1241 yeni vakansiya çıxarılıb. Həmin vakansiyaların təqribən 400-ü Bakı şəhəri üzrə ümumi təhsil müəssisələrindədir”.

Şöbə müdiri bu amilin müsahibə mərhələsinin müddətinə də təsir edəcəyi qənaətindədir: “Yerləşdirilən namizədlərlə müddətli əmək müqaviləsi bağlanılır. Onlarla oktyabr ayının ikinci yarısından başlayaraq müsahibələrə başlanılması nəzərdə tutulub. İlk növbədə ucqar kənd məktəblərinə təyinat alan namizədlərin müsahibələrinin keçirilməsi planlaşdırılır. Bildiyiniz kimi, daimiləşmə müsahibələri əsasən tədris ilinin sonunda keçirilir. Bu il sanitar-epidemioloji vəziyyətlə əlaqədar dəyişiklik edildi. Bu il işə qəbul olunanların da, vakant yerlərin də sayı daha çox olduğundan müsahibələrə qatılacaq namizədlərin sayı artıb. Ola bilər ki, müsahibələr gələn il də davam etsin”.

### Müsabiqə bitdi, tutulmayan yer qaldı

Namizədlərə təklif edilən yerlərin sayı hər il çoxalsa da, tutulmayan vakant yerlər o qədər də çox deyil. Əsasən ucqar kənd ərazilərində və musiqi, təsviri incəsənət fənləri üzrə boş qalan yerlər daha çoxdur. E.Bağırovun sözlərinə görə, həmin yerlər üçün də əlavə yerləşdirmə aparılacaq: “Tutulmayan vakant yerlərə əlavə yerləşdirmənin də oktyabr ayında keçiriləcəyi nəzərdə tutulur”.

# Avropa çempionatında yüksək nəticə

## Məktəbli şahmatçılar daha bir uğura imza atıblar

**Rəşad ZİYADOV**

Respublikamızda idmanın bütün növləri kimi şahmatda da idmançılarımız beynəlxalq arenalarda ölkəmizi layiqincə təmsil edirlər. Rubrikamızın budəfəki qonaqları "Təhsil" Respublika İdman Mərkəzinin 4 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin yetirməsi Ləman Hacıyeva və həmin mərkəzin 3 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin şahmatçısı Əhməd Əhmədzadədir. Gənc şahmatçıların uğur hekayələri ilə tanış olaq.



**Tanıtım.** Hacıyeva Ləman Maqsud qızı 2003-cü ildə Sumqayıt şəhərində anadan olub. 6 yaşından şahmatla məşğul olmağa başlayıb. Sumqayıt şəhər 10 nömrəli tam orta məktəbin məzunudur. Uşaq yaşlarından şahmata böyük maraq göstərib. 2009-cu ildə "Təhsil" Respublika İdman Mərkəzinin 4 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman-Şahmat Məktəbində təcrübəli şahmat müəllimlərindən bu idman növünün sirlərini öyrənməyə başlayıb. Dövlət İmtahan Mərkəzinin builki qəbul imtahanlarında iştirak edərək Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına qəbul olub.

### "Ən böyük arzum qadınlar arasında tanınmış və güclü şahmatçı olmaqdır"

Ləman Hacıyeva söhbətimizə bu fikirlərilə başladı: "Şahmat mənim üçün çox vacib və dəyərlidir. Çox sevdiyim və həmişə arzusunda olduğum bir idman növüdür. Mənə elə gəlir ki, şahmatsız özümü və gələcəyimi düşünə bilmirəm. Şahmat digər idman növlərindən çox fərqlənir. Ən çox bir xanım üçün əlverişli və fiziki güc tələb olunmayan bir idmandır. İlk yarışım Neftçala şəhərində zona yarışlarında olub. Orada IV yeri tutduqdan sonra mənim növbəti iştirakım üçün şərait yarandı.Və bundan sonra dəfələrlə beynəlxalq turnirlərdə, Avropa və dünya çempionatlarında iştirak etdim. Sonuncu yarışım isə şahmat üzrə onlayn formatda Avropa çempionatı oldu. Mən bu yarışda III yeri tutmuşam. Oyunuma gəldikdə daha çox hücumda oynamağı xoşlayıram. Ən böyük arzum qadınlar arasında tanınmış və güclü şahmatçı olmaqdır. Əldə etdiyim uğurlarıma görə "Təhsil" Respublika İdman Mərkəzinin 4 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin direktoru başda olmaqla bütün kollektivə, müəllimlərimə təşəkkürümü bildirirəm. Onların mənim üzərimdə əziyyətləri çoxdur. Xüsusən də beynəlxalq qrossmeyster, əməkdar məşqi Fərid Abbasova minnətdaram".

### "Hər dəfə uğur əldə edəndə özümə inamım daha da artdı"

Əhməd Əhmədzadə şahmat üçün yaşın böyük fərqi olmadığını bildirərək dedi: "Hansı yaşda şahmata başlayırsan başla, əsas əzmkarlıqla, məqsədyönlü şəkildə məşğul olmaqdır. Özünə əmin olmalısan, uğursuzluqlardan ruhdan düşməyərək geriyə çəkilməməlisən. 5 yaşım olanda məndən 4 yaş böyük qardaşımla evdə şahmat oynamağa başladım. Belə desək, məndə bu idman növünə marağı da qardaşım yaratdı. 6 yaşımda valideynlərimin istəyi ilə "Təhsil" Respublika İdman Mərkəzinin 3 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman-Şahmat Məktəbinə qəbul olundum. İdman məktəbində beynəlxalq məşqçi və əməkdar məşqçi Anar Allahverdiyevdən şahmat dərslərini almağa başladım. İlk dəfə şahmat məktəbinə gələndə buradakı ab-hava məni çox həvəsləndirdi və nədənsə məndə özümə qarşı böyük bir inam yaratdı. Həvəslə, yorulmadan məşqlər edirdim və çalışırdım həm müəllimlərimin, həm də valideynlərimin etimadını doğruldum. İlk illərdə yarışlara qatılsam da, elə böyük nəticələr əldə etməmişdim. Buraxdığım səhvlərdən nəticə çıxarmaq üçün var gücümlə çalışırdım. Mənimlə bərabər, deyərdim ki, məndən də çox əziyyət çəkən isə məşqçi-müəllimim Anar Allahverdiyevdir.

2011-ci ildə ilk dəfə respublika çempionatında uğurla çıxış edəndə çəkdiyimiz əziyyətlərin hədər getmədiyini anladım. Sevincimin həddi-hüdudu yox idi. Bundan sonra uğurlarımı təkrarlamağı və daha böyük nailiyyətlər əldə etməyi qarşıma məqsəd qoydum. Bu işdə məktəbimizin direktoru Cəmil Fətullayev bizə hər bir şəraitdə köməklik göstərir, problemlərimizlə maraqlanırdı. Çox keçmədi ki, qələbələr qazandım və hər dəfə uğur əldə edəndə özümə inamım daha da artdı. Artıq uduzmağı qəbul etmək istəmirdim, çalışırdım adi oyunlarda belə heç kimə məğlub olmayım. Qarşıma məqsəd qoydum, daha yaxşı oynayaraq həmişə rəqiblərimi udmaq, istənilən yarışa hazırlıqlı çıxmaq, rəqibin olduqca güclü olmasından qorxmamaq. Elə yarışlar və turnirlər olur ki, özümdən yaşca böyük və güclü şahmatçılarla oynayıram.

2011-ci ildən bu günə kimi kifayət qədər yarışlarda olmuşam. Onlar arasından ən önəmlisi 2012-ci ilin 6-13 iyul tarixlərində Gürcüstanın Kutaisi şəhərində 8 yaşlılar arasında keçirilən Avropa kuboku yarışıdır. Həmin yarışda II yeri, Serbiyanın Novi-Sad şəhərində 2013-cü ilin 20-28 iyun tarixlərində 9 yaşlı şahmatçılar arasında keçirilən məktəblilər arasında Avropa çempionatında II, 2014-cü ilin iyun ayının 13-dən 27-nə kimi Yunanıstanın Kavala şəhərində keçirilən 11 yaşlı məktəblilər arasında sürətli şahmat üzrə dünya çempionatında II, 2015-ci ilin iyun ayının 13-dən 23-nə kimi və həmin ilin dekabrında kişilər arasında keçirilən Azərbaycan çempionatlarında I yerə layiq görülmüşəm. Digər yaddaqalan yarışım ötən ilin noyabr ayında Türkiyənin Çorum şəhərində keçirilən 16 yaşadək şahmatçılar arasında Dünya Şahmat Olimpiadasında Azərbaycan yığma komandasının tərkibində olimpiya çempionu adını qazanmaqdır. Sonuncu yarışım - onlayn formatda Avropa çempionatında IV yeri qazanmışam. Qarşıma tanınmış qrossmeyster olmağı məqsəd qoymuşam".

### "Böyük ümidlərimiz var"

*3 nömrəli Uşaq-Gənclər Şahmat-İdman Məktəbinin direktoru Cəmil Fətullayev:* "Əhməd Əhmədzadə kiçik yaşlarından məktəbimizdə məşğul olur. Əhməd özünü yaxşı şahmatçı kimi elə 6 yaşından dərəcə yarışları keçirilən zaman sübut etdi. Qısa vaxt ərzində vacib yarışlarda iştirak edərək yüksək nailiyyətlər qazandı. O,



**Tanıtım.** Əhmədzadə Əhməd Samir oğlu 2004-cü il dekabrın 13-də Bakıda anadan olub. 2010-cu ildən şahmatla məşğul olmağa başlayıb. Bakı şəhəri 6 nömrəli məktəb-liseyin X "k" sinfinin şagirdidir. Öz çalışqanlığı və istedadı ilə müəllimlərinin diqqətini cəlb edir və çox keçmir ki, uğurları hamını sevindirir. İstər təhsil aldığı 6 nömrəli məktəb-liseydə, istərsə də şahmat məktəbində nizam-intizamı və çalışqanlığı ilə yaşıdlarından fərqlənərək dünya çempionu olmağı, bayrağımızı beynəlxalq səviyyəli yarışlarda uca tutmağı öz qarşısına məqsəd qoyur və bu məqsədə doğru addım-addım irəliləyir.

2015-ci ildə çox yüksək bir nailiyyət göstərərək kişilər arasında Bakı çempionu olaraq bu il keçiriləcək Azərbaycan çempionatına birinci dəstəyə vəsiqə qazanıb. Bu yarış onun üçün ən böyük bir uğur və nailiyyətdir. Bunu xüsusilə qeyd etmək istərdim ki, 12 yaşlı bir yeniyetmənin kişilər arasında Azərbaycan çempionatına vəsiqə əldə etməsi sevindirici hadisədir. Valideynləri, müəllimi və məktəb tərəfindən Əhmədə böyük ümidlərimiz var. Əhmədə bu yolda uğurlar arzulayırıq".

Qeyd edək ki, sentyabrın 18-20 tarixlərində şahmat üzrə onlayn formatda Avropa çempionatı keçirilib. Avropa Şahmat Birliyinin təşkilatçılığı ilə keçirilən və 40 ölkədən 750-ə yaxın şahmatçının qatıldığı çempionatda məktəblilərimiz uğurlu nəticə göstəriblər.

Belə ki, şahmatın rapid növü üzrə 18 yaşadək qızların mübarizəsində Təhsil Respublika İdman Mərkəzinin 4 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin yetirməsi Ləman Hacıyeva 9 oyundan 7 xalla III, 16 yaşadək oğlanların mübarizəsində "Təhsil" Respublika İdman Mərkəzinin 3 nömrəli Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin yetirməsi Əhməd Əhmədzadə IV yerə layiq görülüb.

Avropa Şahmat Birliyi tərəfindən gənclər arasında təşkil olunan çempionat 4 yaş qrupu üzrə 8 kateqoriyada (12, 14, 16, 18 yaşadək oğlanlar və qızlar) keçirilib. Onlayn formatda 25 dəqiqə + 10 saniyə/hər gedişə - nəzarət vaxtı ilə təşkil olunan yarış yerli federasiyaların müəyyən etdiyi oyun zonalarında hakim və kamera nəzarəti altında baş tutub.

---

Azərbaycan Respublikası Təhsil Nazirliyi

# Mingəçevir Dövlət Universiteti

## Qəbul olan abituriyentlərin nəzərinə




**MDU Sənəd Qəbulu Komissiyası 2020/2021 (Sənəd qəbulu 25 sentyabr - 07 oktyabr tarixədək aparılacaq)**

*Əziz abituriyentlər!*

2020/2021-ci tədris ili üzrə Mingəçevir Dövlət Universitetinə qəbul olunan abituriyentlərin sənədlərinin qeydiyyatı online formada aparılacaq. Abituriyentlər aşağıda qeyd olunan sənədləri qeydiyyat üçün təqdim etməlidirlər.

**Qeydiyyat zamanı abituriyentlərdən tələb olunan sənədlər:**

**1.** *3x4 sm ölçüdə rəngli fotoşəkil (pdf, jpg);*

**2.** *Abituriyentlərin şəxsiyyət vəsiqəsinin skan edilmiş surəti (notarial qaydada təsdiq edilmiş);*

*3. Sağlamlıq haqqında tibbi arayışın skan edilmiş sürəti (Forma № 86);*

**4.** *Təhsil haqqında sənədin - attestat və ya diplomun əslinin skan edilmiş surəti;*

**5.** *İş nömrəsi, parol, şəxsiyyət vəsiqəsinin FİN kodu;*

**6.** *Qəbul haqqında DİM səhifəsindən çıxarış;*

**7.** *Ödənişli əsaslarla təhsil alacaq tələbələrin illik təhsil haqqının ödəniş qəbzinin skan edilmiş surəti;*

**8.** *Hərbi biletin və ya çağırışçı şəhadətnaməsinin skan edilmiş surəti (oğlanlar üçün).*

**Təhsil haqları dövlət vəsaiti hesabına ödəniləcək abituriyentlərdən tələb olunan əlavə sənədlər:**

**1.** *Məcburi köçkünlər:*

- Abituriyentin məcburi köçkün vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti.

**2.** *Şəhid ailəsi statusunu almış ailənin üzvləri:*

- Valideynin şəhid olmasını təsdiq edən sənədin notarial qaydada təsdiq edilmiş surəti;
- 18 yaşı tamam olan abituriyentlər şəhid ailəsinin üzvü kimi vəsiqənin surətini, vəsiqəsi olmayanlar doğum haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti;
- Mərhum valideynin ölüm haqqında şəhadətnaməsinin surəti.

**QEYD:** *Təhsil haqqından 23 yaşı tamam olana kimi azad olunur.*

**3.** *Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların uşaqları:*

- Valideynin Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olmasını, əlil olmasını, hərbi əməliyyatla əlaqədar itkin düşməsini və məhkəmə tərəfindən ölmüş elan edilməsini təsdiq edən sənədin notarial qaydada təsdiq edilmiş surəti;
- Abituriyentin doğum haqqında şəhadətnaməsinin notarial qaydada təsdiq edilmiş surəti.

**4.** *"Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" 22 iyun 1999-cu il tarixli Azərbaycan Respublikasının Qanununa əsasən hər iki valideyni vəfat etmiş, hər iki valideynin himayəsindən məhrum olmuş və ya bir valideyni vəfat etmiş, digər valideyni isə I və II qrup əlil olanlar:*

- Valideynlərinin himayəsindən məhrum olmasını təsdiq edən sənədin notarial qaydada təsdiq edilmiş surəti;
- Valideynlərinin vəfat etdiyini təsdiq edən sənədin notarial qaydada təsdiq edilmiş surəti;
- Abituriyentin doğum haqqında şəhadətnaməsinin notarial qaydada təsdiq edilmiş surəti.

**QEYD:** *Təhsil haqqından 23 yaşı tamam olana kimi azad olunur.*

**5.** *Sağlamlıq imkanları məhdud 18 yaşadək şəxslər, I və II qrup əlillər:*

- Abituriyentin əlilliyini təsdiq edən sənədin notarial qaydada təsdiq edilmiş surəti.

Sənədlər onlayn qaydada *qebul2020@mdu.edu.az* elektron ünvanına göndərilir.

**QEYD:** *Sənədlər elektron ünvana göndərilərkən mobil telefon nömrəsinin qeyd olunması tövsiyə olunur.*

Sənəd qəbuluna dair yarana biləcək suallarla bağlı müvafiq ixtisaslar üzrə aşağıdakı şəxslərlə əlaqə saxlamaq olar:

| | | |
|---|---|---|
| Nizami Zeynalov | Pedaqoji fakültənin dekanı | (050) 347-74-72<br>fakulte_pedaqoji@mdu.edu.az |
| Flora Namazova | Pedaqoji fakültənin dekan müavini | (051) 854-95-55<br>flora.namazova@mdu.edu.az |
| Nüşabə Qədimli | İqtisadiyyat və idarəetmə fakültəsinin dekanı | (050) 716-25-35<br>fakulte_iqtisad@mdu.edu.az |
| Nazim Niftəliyev | İqtisadiyyat və idarəetmə fakültəsinin dekan müavini | (050) 359-52-25<br>nazim.niftaliyev@mdu.edu.az |
| Almaz Əliyeva | Mühəndislik fakültəsinin dekan əvəzi | (050) 346-90-14<br>fakulte_muhendis@mdu.edu.az |
| Səbuhi Qəhrəmanov | Mühəndislik fakültəsinin dekan müavini | (055) 998-66-88<br>sabuhi.qahramanov@mdu.edu.az |
| Üzeyir Zeynalov | Tədris şöbəsinin müdir müavini | (055) 916-12-81<br>tedris_shobesi@mdu.edu.az |
| Elnur Xəlilov | İnformasiya texnologiyaları mərkəzinin direktoru | (055) 440-37-69<br>ikt@mdu.edu.az |

Xaricdə doktorantura təhsili

# "Təhsilimizin inkişafı üçün səylərimi əsirgəməyəcəm"



Məlumdur ki, müasir dünya reallıqları şəraitində hər bir ölkənin inkişafı yüksək ixtisaslı, müasir səriştə və bacarıqlara sahib insan kapitalından, onun intellektual səviyyəsindən çox asılıdır. Bu isə bir çox hallarda ölkənin davamlı inkişafında həlledici rol oynayan elmi-tədqiqatçıların hazırlanmasını zərurətə çevirir. Bu mənada 2018-ci ilin noyabrında Prezident İlham Əliyev tərəfindən imzalanmış "2019-2023-cü illər üçün Azərbaycan ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" ölkəmizdə yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasına mühüm töhfədir. Proqram çərçivəsində doktorantura təhsili almaq hüququ qazanan gənclərimizdən biri də Asif Mustafayevdir. O, hazırda Almaniyanın Köln Universitetində "Kibercinayətkarlıq" ixtisası üzrə PhD/doktorantura təhsili alır. Əvvəlcə müsahibimizlə yaxından tanış olaq.

- Bu proqramın əhatə etdiyi illər ərzində elm adamlarımızın xarici ölkələrin qabaqcıl universitetlərində təhsil alması ilk mərhələdə kifayət edəcəkdir ki, universitetlərimizə yeni nəfəs gəlsin, ali məktəblərimiz dünya universitetləri ilə elmi rəqabətə girə bilsin.
- Elmi işim hazırda daha çox aktuallaşmaqda olan kibercinayətkarlıq mövzusundadır. Doktorluq işimdə kibercinayətkarlığın və bu sahədəki Almaniya, Azərbaycan və beynəlxalq qanunvericiliyin müqayisəli təhlilini araşdırıram.
- Biz hazırlıqsız olmağımıza baxmayaraq, təhsildə müxtəlif proqramların tətbiqi vasitəsi ilə uzaqdan tədrisi həyata keçirməyə məcbur olduq. Burada söhbət xüsusilə məktəblilərdən getdiyi üçün həmin texnoloji metodların tətbiqində daha diqqətli olmalıyıq. Bu zaman xüsusilə şagirdləri onların şəxsi məlumatlarının, video və şəkillərinin etibarlı formada qorunmasına təminat verən metodlar tətbiq edilməlidir.
- İstərdim ki, əldə etdiyim nəzəri və praktiki biliklərimi hüquq ədəbiyyatlarında, kommentariyalarda və digər qaynaqlarda əks etdirərək, internet və kompüter cinayətlərinin həmin qaynaqlarda daha aydın və dolğun formada təsvir olunmasına nail olum, eyni zamanda həmin mənbələrin zənginləşdirilməsinə, həmçinin qanunverciliyimizin təkmilləşdirilməsinə öz töhfəmi verim.

**Oruc MUSTAFAYEV**

## Asif Mustafayev:

## "Almaniyada təhsil aldığım müddətdə yiyələndiyim elmi biliklərimi, araşdırma təcrübəmi Bakı Dövlət Universitetindəki tədrisimdə tətbiq etməyə çalışacağam"

*- Dövlət Proqramına qəbul olunmağınız barədə təəssüratlarınız necədir?*

- Dövlət Proqramına qəbul olunmağımın mənim üçün böyük bir nailiyyət olduğunu düşünürəm. İstər sənəd qəbulu, istərsə də ümumilikdə qəbul prosesi həqiqətən yüksək səviyyədə təşkil olunmuşdu. Öncə bildirim ki, sənəd qəbulu beynəlxalq səviyyədə təqaüd fondlarının sənəd qəbulu şərtləri və prosesləri ilə müqayisədə daha asan, əlçatan və praktik xarakter daşıyırdı. Qəbul prosesi və müsahibə mərhələsi öz yüksək keyfiyyətli təşkilatçılığı ilə yadımda qaldı. Müsahibə mərhələsinə olduğun ölkədən "skype" proqramı ilə online qoşulmaq imkanı yaradılmışdı. Müsahibə mərhələsi video kamera ilə çəkiliş də daxil olmaqla, çox şəffaf formada aparıldı. Pandemiya dövrünə düşməsinə, əməkdaşların evdən çalışmalarına baxmayaraq, proses dövründə yaranmış bütün suallara, bütün məsələlərin həllinə yüksək diqqət, peşəkarlıq ilə yanaşılmışdır. Bunun üçün bu prosesdə əməyi olan hər kəsə minnətdarlığımı bildirirəm.

### Universitetlərimizin elmi bazasının zənginləşdirilməsi

*- DP-nin yüksək hazırlıqlı mütəxəssislərin hazırlanmasında rolunu necə qiymətləndirirsiniz?*

- Öncə bildirim ki, bu proqram bizim hər zaman vacibliyini dilə gətirdiyimiz bir işi görməkdədir. Belə ki, universitetlərimizin elmi bazasının zənginləşdirilməsi üçün bu proqram əvəzsiz önəm daşıyır, çünki doktorantura təhsili üçün göndərilmiş şəxslər dünyanın ən qabaqcıl universitetlərində elmi işlərini müdafiə edəcəklər. Bu universitetlərin hər biri yüksək elmi-tədqiqat ənənəsinə, seçilmiş professor-müəllim heyətinə malik olduqları üçün qabaqcıl universitetlər sırasındadırlar. Bu elm ocaqlarında, onların elmi çevrəsində yetişmiş şəxslərin vətənə qayıdaraq çalışacaqları universitetlərdə necə faydalı olacaqlarını təsəvvür etmək çətin deyildir. Bu proqramın əhatə etdiyi illər ərzində elm adamlarımızın xarici ölkələrin qabaqcıl universitetlərində təhsil alması ilk mərhələdə kifayət edəcəkdir ki, universitetlərimizə yeni nəfəs gəlsin, ali məktəblərimiz dünya universitetləri ilə elmi rəqabətə girə bilsin. Bu proqram təkcə ixtisaslaşdığımız elm sahələri baxımından deyil, təhsil aldığımız xarici universitetlərdəki elmi disiplini, ənənəni, elmi-tədqiqat atmosferini, elmə olan marağı və digər bu kimi universitetlərin keyfiyyət seçimində önəmli olan xüsusiyyətləri ölkəmizin universitetlərinə gətirmək təcrübəsinin formalaşması baxımından da çox önəmlidir.

### "Kibercinayətkarlıq sahəsində beynəlxalq qanunvericiliyin müqayisəli təhlilini araşdırıram"

*- Doktorant olaraq hansı mövzu üzərində işləyəcəksiniz? Tədqiqat mövzunuz dünyada nə dərəcədə prioritetdir?*

- Elmi işim hazırda daha çox aktuallaşmaqda olan kibercinayətkarlıq mövzusundadır. Doktorluq işimdə kibercinayətkarlığın və bu sahədəki Almaniya, Azərbaycan və beynəlxalq qanunvericiliyin müqayisəli təhlilini araşdırıram. Kibercinayətkarlıq tarixi baxımından yeni, yəni, informasiya texnologiyalarının ortaya çıxması ilə bərabər yaransa da, hazırda ən sürətlə inkişaf edən, tədqiqatına ciddi elmi potensial ayrılmalı olan bir sahədir. Çünki texnologiya sürətlə inkişaf edir. Bu kateqoriyadan olan cinayətlər də öz qurbanlarının sayına görə dünyada ən geniş yayılmış əməllərdəndir. Transmilli xarakter daşıması, cinayətlərin üstünün açılmasındakı çətinliyi, bəşəri təhlükələrə səbəb olma və digər bu kimi xüsusiyyətləri baxımından kibercinayətkarlıq və onun tədqiqatı hazırda dünyanın ən qabaqcıl universitetlərinin, elmi-tədqiqat institutlarının diqqət mərkəzindədir.

*- Tədqiqatlarınız tərəfdaş universitetə nə kimi töhfələr verə bilər?*

- Bir universitetin beynəlxalq nüfuzunun və rəqabətliliyinin yüksəldilməsinin əsas şərtlərindən biri onun elmin yeni sahələrində tədqiqat qabiliyyətinə, müasir dövrlə ayaqlaşa bilən elmi bazaya yiyələnməsidir. Bu baxımdan ən geniş yayılmış və ən geniş insan kütləsini öz qurbanına çevirən kibercinayətlərə də universitetlərimiz geniş yer ayırmalı, bu sahənin hər yöndən tədqiq edilməsinə diqqət göstərməlidir. Tərəfdaş ali təhsil müəssisəsi olan Bakı Dövlət Universitetinin hüquq fakültəsində kibercinayətkarlıq sahəsi yeni bir sfera sayılır və ona görə də ciddi tədqiqatı diqqətdə saxlamaq zərurəti yaranır. Dissertasiya mövzusunun seçilməsində həmçinin ölkəmizdə bu sahədə aparılan tədqiqatların azlığı da böyük rol oynamışdır. Doktorluq dissertasiyamı uğurla başa vurduqdan sonra bu sahədə ixtisaslaşmış elm adamı kimi ilk görmək istədiyim işlərdən birincisi fakültəmizdə bu sahəyə diqqətin artırılmasına, bu sahənin ayrıca, yaxud media cinayətlərinin tərkibində tədris edilməsinə nail olmaqdır. Bununla yanaşı, fakültənin tərkibində media və kibercinayətkarlıq mərkəzinin yaradılmasına nail olmağa çalışacağam ki, bu da öz növbəsində tələbələr arasında bu sahəyə marağın artırılmasına, kibercinayətkarlıq sahəsində mütəxəssislərin yetişdirilməsinə yol açacaqdır. Bütün bunların Bakı Dövlət Universitetinin kibercinayətkarlığı hüquqi tərəfdən dərindən ələ alan və tədqiqatını aparan universitet kimi ölkədə və dünyada öz layiqli yerini tutması yolunda töhfəsini verəcəyinə inanıram. Bundan başqa, Almaniyada təhsil aldığım müddətdə yiyələndiyim elmi biliklərimi, metodologiyanı, araşdırma təcrübəsini, elmi işgüzarlığı, elmi disiplini və cavabdehliyi də Bakı Dövlət Universitetindəki tədrisimdə bacardığım qədəri ilə aşılamağa, tətbiq etməyə çalışacağam.

### "İnformasiya texnologiyaları ilə yanaşı kibercinayətkarlıq da inkişaf etməkdədir"

*- Kibercinayətkarlıq son illərdə ən sürətli inkişaf edən elmi istiqamətlərdəndir. Bu nə ilə bağlıdır?*

- Tamamilə doğrudur. Biz artıq informasiya texnologiyasının çox sürətlə inkişaf etdiyi bir dövrdə yaşayırıq. Bu inkişaf o qədər sürətlidir ki, adi bir texnoloji yenilik bir ildən sonra xeyli köhnəlmiş hesab oluna bilir. Süni intellekt, robot texnologiyası artıq elə bir inkişaf həddindədir ki, yavaş-yavaş bu texnologiya artıq insanları əvəz etməyə başlayıb. Əksər peşə sahibləri bu dəyişikliyə məruz qalacaqdır. Kibercinayətlərin meydana çıxması təxminən elektron hesablayıcı maşınların yaranması və inkişafı ilə eyni dövrə təsadüf edir. İnformasiya texnologiyaları inkişaf etdikcə kibercinayətkarlıq, onun törədilmə üsulları, məsuliyyətdən yayınma imkanları da inkişaf etməkdə, dəyişməkdədir. Burada ortaya çıxan ən böyük problem ondan ibarətdir ki, kibercinayətkarlıq hüququ informasiya texnologiyasının inkişafı ilə ayaqlaşa, onun yüksək inkişaf sürətinə yetişə bilmir. Bu, isə öz növbəsində bu sahədəki qanunvercilikdə xeyli boşluqların, bəzən ziddiyyətlərin əmələ gəlməsinə səbəb olur. Artıq robotlar tərəfindən törədilən əməllərə (robot crime), eləcə də süni intellektin səhvlərinə görə məsuliyyət məsələsi yeni hüquqi problem sayılır. İnsanlar artıq günlərinin xeyli hissəsini virtual aləmdə keçirir, öz işlərini internet üzərində görməyə başlayıb. Son illər ölkədə onlayn alqı-satqı kifayət qədər artmağa, müxtəlif yerli və xarici saytlar vasitəsilə vətəndaşlarımız dünyanın istənilən ölkəsindən müxtəlif mallar sifariş etməyə başlayıb. Bu tendensiya xüsusilə mövcud pandemiyaya görə daha da sürətlənmiş oldu. Bu, özlüyündə rahatlıq, stressiz bir alqı-satqı növü olsa da, təbii ki, mənfi tərəflərini də özü ilə gətirməkdədir. Belə ki, internet üzərindən sifariş verən hər bir şəxs öz şəxsi məlumatlarını, bank hesab nömrələrini bəyan etməlidir. Bu da öz növbəsində pishing (müxtəlif manipulyasiya vasitələrilə şəxsi məlumatların ələ keçirilməsi) üçün əlverişli imkan deməkdir. Artıq insanların bank hesablarından cüzi məbləğlərin naməlum formada yoxa çıxması ölkədə nadir qarşılanacaq bir hadisə deyildir. Şübhəsiz ki, bunların əksəriyyəti avtomatlaşdırılmış formada aparılan pishing hücumlarının nəticəsidir. İnformasiya texnologiyasının, digitallaşmanın yüksək sürətli inkişafı, real əməliyyatların artıq internet üzərindən həyata keçirilməsi internet və kompüter cinayətlərinin sayının və çeşidlərinin artması ilə nəticələnəcək. Qeyd edilənlər xüsusilə hazırkı dövrdə pandemiya səbəbilə daha da sürətli bir hal alması ilə bizim kibercinayətlərə hazırlıqsız məruz qalmağımıza, habelə mübarizə strategiyamızı formalaşdırmaqda ləngiməyimizə səbəb ola bilər. Bu da öz növbəsində strateji baxımdan həssas olan sözügedən sahəyə xüsusi diqqətlə yanaşılmasını labüd edir.

### "Texnoloji metodların tətbiqində daha da diqqətli olmalıyıq"

*- Mövcud pandemiya şəraiti təhsildə müxtəlif texnologiyaların tətbiqini qaçılmaz etdi. Texnologiyaların zərərli təsirlərindən, xüsusən də təhsil sahəsində, qorunmaq mümkündürmü? Bu barədə nə kimi tövsiyələriniz olardı?*

- Doğrudur. Təsadüfi deyil ki, dünya, eləcə də ölkəmiz rəqəmsallaşma və həyatımızda informasiya texnologiyalarının tətbiqində 10 ilə qət edəcəyi inkişaf yolunu bir virusun səbəb olduğu pandemiya müddətində keçmiş oldu. Biz hazırlıqsız olmağımıza baxmayaraq, təhsildə müxtəlif proqramların tətbiqi vasitəsi ilə uzaqdan tədrisi həyata keçirməyə məcbur olduq. Burada söhbət xüsusilə məktəblilərdən getdiyi üçün həmin texnoloji metodların tətbiqində daha diqqətli olmalıyıq. Bu zaman xüsusilə şagirdləri onların şəxsi məlumatlarının, video və şəkillərinin etibarlı formada qorunmasına təminat verən metodlar tətbiq edilməlidir. Çox vacib olmadığı halda əlavə məlumatların bəyan, onların surətlərinin əlavə edilməsindən yayınmaq lazımdır. Çünki tətbiq etdiyimiz bütün proqramlar ayrı-ayrı transmilli korporasiyalara məxsusdur və onların bizim məlumatlarımızı hansı formada və necə qoruduğundan heç də həmişə əmin ola bilmərik. İnternet üzərində qeyri-etik materialların, şantaj və hədə-qorxu kimi halların geniş yayıldığı bu dövrdə gənc nəsli bu cür neqativ əməllərdən qorumağa borcluyuq. İnanıram ki, İT sahəsində kifayət qədər mütəxəssisə sahibik və onlar artıq bütün bunları nəzərə almaqdadır. Ən əsas tövsiyəm isə valideynlərə ondan ibarət olardı ki, uşaqların bütün gün ərzində kompüter arxasında vaxt keçirmələrinə, onların kompüter oyunlarına aludə olmamalarına, real sosial həyatdan qopmamalarına diqqət etməlidirlər. Bu strateji və gələcəyimizi maraqlandıran bir problemdir. Hazırda isə biz ümid edək ki, pandemiya tez bir zamanda aradan qalxsın və tezliklə normal tədris yoluna qayıdaq.

*- Kibercinayəkarlıq sahəsində kadr hazırlığına necə baxırsınız və bu məsələni ölkəmiz üçün nə dərəcədə prioritet hesab edirsiniz?*

- Öncə də qeyd etdiyim kimi, kibercinayətkarlıq durmadan sürətlə inkişaf edir, şaxələnir, mücərrədləşir. Bu cinayətlərə qarşı mübarizənin ən effektiv üsulları, texniki, təşkilati və digər bu kimi sahələrə aid tədbirlərdən ibarətdir. Ancaq yalnız texniki tədbirlər kifayət etmir. Kifayət qədər effektiv, adekvat qanunvericilik aktları işləyib hazırlamaq, qəbul və tətbiq etmək baxımından ictimai-hüquqi münasibətlər də bu mübarizədə önəmli rol oynamaqdadır. Burada xüsusilə qabaqcıl ölkələrin qanunvericilik, hüquqi təcrübəsini araşdıran, bu təcrübəni mənimsəyən hüquqşünasların yetişməsi çox önəmlidir. Bu, həm də ona görə önəmlidir ki, kibercinayətkarlıq transmilli cinayətlər kateqoriyasına daxildir və onlara qarşı mübarizə beynəlxalq əməkdaşlığı vacib edir. Məsələn, bizə qarşı hər hansı bir ölkədən törədilən kiber hüquq pozuntusunun cəzalandırılması üçün vacibdir ki, həmin ölkədə də bu əməl cinayət sayılsın. Bu isə ölkə qanunverciliklərinin beynəlxalq normalara uyğunlaşdırılmasından keçir. Beynəlxalq təcrübəyə, beynəlxalq hüquqi aktlara kifayət qədər bələd olan hüquqşünas-ekspertlərə sahib olmağımız imkan verəcək ki, öz qanunverciliyimizi beynəlxalq standartlara uyğunlaşdıra, qanunvercilikdəki hər hansı bir boşluğu müəyyən edib aradan qaldıra biləк. Bu, çox önəmlidir.

**Tanıtım:** 1984-cü ildə Şəki rayonunun Baş Göynük kəndində anadan olub. 2001-ci ildə Aşağı Layısqı kənd orta məktəbini bitirib. Elə həmin ildə ali məktəblərə keçirilən qəbul imtahanında rayon üzrə ən yüksək - 678 bal toplayaraq Bakı Dövlət Universitetinin hüquq fakültəsinə qəbul olub. 2005-ci ildə bakalavr pilləsini uğurla başa vurub. 2007-2013-cü illərdə Azərbaycan Respublikasının ədliyyə orqanlarında çalışıb.2013-cü ildə Köln Universitetindən dəvət alıb, təhsilini Almaniyada davam etdirib. 2014-2017-ci illərdə Köln Universitetinin hüquq fakültəsinin magistratura pilləsini "Dövlət hüququ, beynəlxalq hüquq və Avropa Birliyi" ixtisası üzrə fərqlənmə diplomu ilə bitirib. Eyni zamanda, 2016-cı ildən həmin universitetin hüquq fakültəsində media cinayətkarlığı, informasiya texnologiyaları hüququ, beynəlxalq cinayət hüququ əsas olmaq üzrə dövlət imtahanı pilləsində əsaslı hüquq təhsili alıb. 2018-ci ildə Köln Universitetinin hüquq fakültəsində iki professorun elmi rəhbərliyi altında "Kibercinayətkarlıq sahəsində Almaniya və Azərbaycan qanunvericiliyinin beynəlxalq normalarla birlikdə müqayisəli təhlili" mövzusunda doktorantura təhsilinə başlayıb. 2019-cu ildən Bakı Dövlət Universitetinin hüquq fakültəsinin beynəlxalq xüsusi hüquq və Avropa hüququ kafedrasında alman bölməsində Avropa hüququ istiqamətində saathesabı dərs deyir. Ədliyyə Akademiyasında kibercinayətkarlıq mövzusunda təlimçi olaraq çıxış edir. 2018-ci ildən Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvüdür.

*- Gələcək hədəfləriniz barədə.*

- Hazırda kibercinayətkarlıq sahəsində qanunverciliyini və təcrübəsini araşdırdığım Almaniya bu cinayət əməllərini müəyyən edərək öz milli qanunverciliyinə daxil edən ilk ölkələrdəndir. Bir çox ölkələr Almaniyanın bu sahədəki təcrübəsindən geniş faydalanır. Qeyd edim ki, oxuduğum Köln Universitetinin hüquq fakültəsi hüquq tədrisi baxımından Almaniyada 5-ci sırada dayanır. Hesab edirəm ki, ölkəmizin bu sahədəki qanunverciliyinin, hüquq ədəbiyyatının zənginləşməsi üçün faydalı işlər görə bilərəm. Fikrimcə, elmi fəaliyyətimin ilk obyekti birbaşa cinayət hüququ ilə bağlı ədəbiyyat olmalıdır. Bu baxımdan istərdim ki, əldə etdiyim nəzəri və praktiki biliklərimi hüquq ədəbiyyatlarında, kommentariyalarda və digər qaynaqlarda əks etdirərək, internet və kompüter cinayətlərinin həmin qaynaqlarda daha aydın və dolğun formada təsvir olunmasına nail olum, eyni zamanda həmin mənbələrin zənginləşdirilməsinə, həmçinin qanunverciliyimizin təkmilləşdirilməsinə öz töhfəmi verim.

Bununla yanaşı, bu sahədə tədqiqat aparan bir elm adamı kimi təhsilimizin və onun timsalında Bakı Dövlət Universitetinin inkişafı, uğur qazanması üçün səylərimi əsirgəməyəcəm. Mənim Almaniyada özümü daha rahat, qayğısız hesab etdiyim, getmək üçün darıxdığım, saatlarla məhsuldar elmi işlə məşğul olduğum yer Köln Universitetidir. Bunu, fikrimcə, əksər alman universitetlərinə şamil etmək olar. Alman universitetləri öz elmi aurası, pozitiv enerjisi ilə tələbələri təhsilə, elmə cəlb etməkdədir. Bu, mənim arzum və uzaq hədəfimdir ki, doğma Bakı Dövlət Universiteti də bu xüsusiyyəti ilə həmişə seçilmiş olsun. Ümidvaram ki, universitetimizin bundan sonrakı inkişafı da uğurla davam etdiriləcək, milli tariximizin dəyərli bir hissəsi olan bu təhsil ocağı yalnız öz tələbə kontingentinin deyil, bütün Azərbaycan gəncliyinin intellektinə işıq tutacaqdır. İnanıram ki, doktorantı olduğum proqram bu arzumun reallaşmasına öz töhfəsini verəcəkdir.

# Öyrənmək yanğısı



## İndoneziyalı şagirdlər pulsuz wi-fi girişi üçün plastik tullantılarla ticarət edirlər

**Oruc MUSTAFAYEV**

Evdə internet çıxışı olmayan cakartalı şagirdlər (İndoneziya) uzaqdan təhsil ala bilmək naminə pulsuz wi-fi girişi əldə etmək üçün plastik tullantılar toplayırlar. COVID-19 pandemiyası səbəbindən mart ayından məktəblər bağlandığından milyonlarla indoneziyalı şagird uzaqdan öyrənmək məcburiyyətində qalıb.

Koronavirus pandemiyası İndoneziya məktəblərini bağlamağa məcbur etdikdə məlum oldu ki, Cənub-Şərqi Asiya ölkəsindəki milyonlarla ailənin internet çıxışı yoxdur. Hətta mobil telefon kimi bir cihazla uzaqdan öyrənmə imkanı da mümkün deyil...

Beləliklə, məktəblilər və könüllülər problemi həll etmək üçün yaradıcı yollar tapdılar. Son iki ay ərzində 15 yaşlı Dimas Əvər Putra və onun bir dostu Cakarta rayonunda plastik zibil topladılar və bunun qarşılığında internetə çıxış əldə etdilər.

Evdə internetə çıxışı olmayan, iki tələbəyə bir kiloqram (2,2 funt) plastik tullantı toplamaq lazımdır ki, onlar həftədə üç dəfə, , təxminən üç saat ərzində online təlimlə məşğul ola bilsinlər.

"Zibil yığmaq mənim üçün bir xeyriyyəçilik kimidir və bunun xaricində pulsuz internet məlumatları da əldə edirik", - deyə Dimas bildirir.

Wi-Fi stansiyası Linga Solixina məxsusdur, o, şagirdlər tərəfindən yığılmış plastik tullantıları satmaqla məşğuldur və ayda 340 000 rupi ($22) müqabilində şagirdlərin kiçik qruplarına öyrənmə imkanı verir.

"Problem ayın sonuna qədər internet məlumatlarının tükənməsindədir ... və onlar daha öyrənə bilməyəcəklər",- deyə Linga bildirir.

Cakartanın təxminən 80 km (50 mil) cənubundakı Bogor yaxınlığındakı bir bölgədə könüllülər şagirdlərin internetdən istifadə edə bilməsi üçün birhəftəlik mobil şəbəkəverici ilə təchiz olunmuş avtomobili ucqar kəndlərə gətirirlər. "Məktəb Könüllüləri" şagirdlərə noutbuk və mobil telefonlar təqdim edir.

"Onlayn təhsil problemi ondan ibarətdir ki, mən telefondan nadir hallarda istifadə edirəm, öz telefonumu valideynlərimlə bölüşürəm", - 14 yaşlı Dafa Mahes Sudirman bildirib. O, təxminən 30 başqa məktəbli ilə birlikdə öz kəndlərindəki taxta sarayda onlayn təhsil almaq şansından istifadə edir.

İndoneziyanın İnternet Xidmət Təchizatçıları Birliyinə görə, 2019-cu ilin ortalarında ölkənin təqribən 60 milyon ev təsərrüfatından yalnız altıdan birinin internet bağlantısı olub.


## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 6858, **Sifariş** 2266

**Məsul növbətçi:** O.Mustafayev


# Etibarsız sayılır

**Beyləqan şəhər** 4 nömrəli tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Hüseynov Zaur Ələsgər oğluna verilmiş A-646813 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**23 nömrəli Bakı Texniki Peşə Məktəbi** tərəfindən 1981-ci ildə Mustafayev İsmət Firudin oğluna verilmiş A-754796 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Yüngül Sənaye Texnikumu** tərəfindən 1983-cü ildə Atakişiyeva Nüşabə Əsgər qızına verilmiş ДТ-I-768714 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**20 nömrəli Texniki Peşə Məktəbi** (indiki 13 nömrəli Bakı Peşə Məktəbi) tərəfindən 1995-ci ildə Məmmədova Zəhra Nurməmməd qızına verilmiş З-0989551 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Xəzər Universiteti** tərəfindən 2018-ci ildə Zeynalov Zakir Nazim oğluna verilmiş C-001564 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Z.Abbasov adına Dəllər qəsəbə tam orta məktəbi 2001-ci ildə bitirmiş Məmmədov Elçin Musabəddin oğluna verilmiş A-540813 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdaş rayon** Xosrov kənd tam orta məktəbi 2008-ci ildə bitirmiş Nəbiyev Pərviz Feruz oğluna verilmiş B-550200 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan şəhər** 2 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Kələntərli Elxan Hacı oğluna verilmiş A-596394 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Xanqərvənd kənd tam orta məktəbi 2007-ci ildə bitirmiş Əhmədov Azər Nazim oğluna verilmiş B-419018 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 154 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Cəfərov Vüsal Hikayət oğluna verilmiş B-372644 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 7 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Babayeva Təhminə Rauf qızına verilmiş A-410634 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 24 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş Mirzəyev Tariyel Qurbanismayıl oğluna verilmiş A-220811 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan şəhər** 1 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş Hacıyeva Könül Rafiq qızına verilmiş A-240649 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 18 nömrəli Peşə Liseyi tərəfindən 2009-cu ildə Aşirov Annamurad Bəşim oğluna verilmiş BB-041545 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 151 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Abdullayev Şamxal Vahid oğluna verilmiş A-501734 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 16 nömrəli Texniki-Humanitar liseyi 2012-ci ildə bitirmiş Qafarova Katana Kamal qızına verilmiş A-113732 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ordubad rayon** Baş Dizə kənd tam orta məktəbi 2013-cü ildə bitirmiş Hüseynov Sahib Abbasqulu oğluna verilmiş AN-183079 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsıız sayılır.

**Bakı şəhər** 136 nömrəli tam orta məktəbin qiyabi qrupunu 2018-ci ildə bitirmiş Babayev Sərhad Sərməst oğluna verilmiş E-142031 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 11 nömrəli tam orta məktəbin IX sinfini 2012-ci ildə bitirmiş Mustafayeva Türkanə İfxan qızına verilmiş 182221 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan MR** Culfa rayon Teyvaz kənd tam orta məktəbi 1998-ci ildə bitirmiş Mirzəliyev Abbas Əli oğluna verilmiş A-231050 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2015-ci ildə Əsgərova Səriyyə Yəhya qızına verilmiş A-067603 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz şəhər** İ.Qayıbov adına 3 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Calalova Elvira Şahin qızına verilmiş 349501 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 26 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Əliyev Əli Mehman oğluna verilmiş A-513809 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Səfikürd kənd tam orta məktəbin IX sinfini 2014-cü ildə bitirmiş Məmmədov Elvin Süleyman oğluna verilmiş A-411141 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayon** Karrar kənd tam orta məktəbi 1979-cu ildə bitirmiş İbrahimova Süsən Zabit qızına verilmiş 247050 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir şəhər** 3 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Qafarova Mələk Hüseynağa qızına verilmiş 580740 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Əlimərdanlı kənd tam orta məktəbi 1990-cı ildə bitirmiş Məmmədov Namiq Çoban oğluna verilmiş 050963 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Slavyan Universiteti** tərəfindən 2013-cü ildə Mahmudov Elgün Vahid oğluna verilmiş A-005859 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 239 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Mustafayev Təbriz Mehman oğluna verilmiş E-137275 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti** tərəfindən 1990-cı ildə Rəhimov Ağakərim Rzaxan oğluna verilmiş УВ I-109244 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 22 nömrəli tam orta məktəbin IX sinfini 2020-ci ildə bitirmiş İsmayılova İlahə Səyyad qızına verilmiş C-344133 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 189-190 nömrəli tam orta məktəbin IX sinfini 1993-cü ildə bitirmiş Ağayeva Aygün Vaqif qızına verilmiş A-035026 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Seçenov Universitetinin Bakı filialı** tərəfindən 2016-cı ildə Kazımova Sara İman qızına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

**2 nömrəli Bakı Tibb Məktəbi** tərəfindən 1978-ci ildə Baxşiyeva Əfilə Sədyar qızına verilmiş AT-006696 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 179 nömrəli tam orta məktəbin IX sinfini 2015-ci ildə bitirmiş Astanlı Nəriman Aslan oğluna verilmiş A-493420 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt Musiqi Texnikumu** tərəfindən 2003-cü ildə Hacıyeva Lalə Hacı qızına verilmiş AB-II-097044 nömrəli diplom və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 297 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Şahbazov Mehdi Kəmaləddin oğluna verilmiş 314305 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan şəhər** 3 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Məmmədzadə Cəmil Zakir oğluna verilmiş B-476355 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz rayon** Xudat şəhər 3 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Vəlimətov Tural Dünyaməddin oğluna verilmiş A-368125 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 45 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Ağamirzəyeva Kəmalə Rafiq qızına verilmiş 174372 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Saray qəsəbə 1 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Dəmirova Günel Əmirəhməd qızına verilmiş AN-274206 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutu** tərəfindən 1977-ci ildə Soltanov Rəfail Höccət oğluna verilmiş Г-I-021384 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutu** tərəfindən 1971-ci ildə Canməmmədova (Əliyeva) Emiliya Səfər qızına verilmiş Щ-314264 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Samux rayon** Qaraağaclı qəsəbə (keçmiş Qırmızı Samux) kənd tam orta məktəbini 2007-ci ildə bitirmiş Səfərov Qəhrəman Mütəllim oğluna verilmiş B-452232 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 25 nömrəli tam orta məktəbin IX sinfini 2011-ci ildə bitirmiş Məmmədova Müqəddəs Zahid qızına verilmiş A-913829 nömrəli şəhadətnamə və 2012-ci ildə verilmiş A-489692 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gədəbəy rayon** Maarif kənd tam orta məktəbi 1994-cü ildə bitirmiş Ramazanova (Ələsgərova) Tünzalə Güloğlan qızına verilmiş (nömrəsiz) attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Bakı 1 nömrəli tibb məktəbi** tərəfindən 2006-cı ildə Əliyeva Sürayyə Kazım qızına verilmiş BB-II-034359 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 17 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Qafarova Leyla Rüfət qızına verilmiş E-011696 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**M.Əzizbəyov adına Azərbaycan Dövlət Neft və Kimya İnstitutu** (indiki ADNSU) tərəfindən 1983-cü ildə Məmmədov Ayaz Yusif oğluna verilmiş KB-017609 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

132-134 nömrəli təhsil kompleksinin pedaqoji kollektivi kompleksin ibtidai sinif müəllimi İradə Nağıyevaya anası

**ŞƏRQİYYƏ KAZIMOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# Təhsil daim inkişafda olmalıdır

## OECD məktəb təhsilinin 4 inkişaf ssenarisini müəyyən edib



Oruc MUSTAFAYEV

2020-ci ilin birinci yarısında 188 ölkə COVID-19 virusunun yayılmasını yavaşlatmaq üçün məktəblərini müvəqqəti olaraq bağladı. Nəticədə birdən-birə 1,5 milyarddan çox təhsilalan onlayn dərslərə qatılmalı oldu. Son aylarda bir sıra ölkələrdə məktəblər yenidən açılmağa başladı: bəziləri isə dərslərin yenidən başlamasından bir neçə gün sonra distant təhsilə qayıtmaq məcburiyyətində qaldı, çünki infeksiyanın səviyyəsi kəskin şəkildə artdı. Uşaqların məktəbə qayıtması ilə cəmiyyətin sağlamlığını qorumaq arasında hansı kompromisslər var? Məktəblər koronavirusa necə uyğunlaşa bilərlər? Və bu virus bizim öyrəndiklərimizi radikal və əbədi olaraq dəyişəcəkmi? İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) təhsil və bacarıqlar üzrə direktoru Andreas Şleyxer " Gələcək məktəb təhsilinin dörd ssenarisi" adlı məqaləsində bu vəziyyəti izah edir.

### Gələcək bizi təəccübləndirməyi sevir

Bütün dünyada şagird nailiyyətlərinin beynəlxalq qiymətləndirmə proqramının (PISA) müəllifi qeyd edir ki, 2020-ci il - retrospektivlərin və uzaqgörənliyin bu həyəcanlı ili bizə xatırladıb ki, ən yaxşı planlara baxmayaraq, həqiqət ondan ibarətdir ki, gələcək bizi təəccübləndirməyi sevir. Təhsil sistemlərimizi baş verə biləcək hadisələrə hazırlamaq üçün biz yalnız ən çox ehtimal olunan dəyişiklikləri deyil, gözləmədiyimiz dəyişiklikləri də nəzərə almalıyıq.

Bizim gələcəklə bağlı fikirlərimizin əksəriyyəti xəttidir və hazırda mövcud olan tendensiyaların genişlənməsinə əsaslanır. Lakin tendensiyalar yavaşlayır, sürətlənir, əyilir və qırılır, gözlənilməz hadisələr hətta uzunmüddətli tendensiyaları da poza bilər - buna misal olaraq koronavirus pandemiyasını (COVID - 19) göstərmək olar.

### Gələcək məktəb təhsilinin dörd ssenarisi

Gələcəklə bağlı konkret faktlar və sübutlar olmadıqda ssenarilərdən istifadə bizə gələcəkdə daha geniş mənada təlim və təhsil zamanı yarana biləcək imkan və problemləri müəyyənləşdirməyə kömək edə bilər. OECD-nin məktəb təhsili üçün ssenariləri gələcəyin dörd alternativ variantından ibarət dəsti nəzərdə tutur:

*1. Məktəblərin genişlənməsi*

Formal təhsildə iştirakın genişlənməsi davam edir. Beynəlxalq əməkdaşlıq və texnoloji nailiyyətlər daha fərdiləşdirilmiş təlimi dəstəkləyir. Məktəb təhsilinin strukturları və prosesləri qalır.

*2.Təhsil qaydaları*

Cəmiyyət öz vətəndaşlarının təhsilinə birbaşa, daha çox cəlb olunduqca ənənəvi məktəb təhsil sistemləri sıradan çıxır. Təlim rəqəmsal texnologiyaların əsas amil kimi çıxış etdiyi daha fərqli, fərdi və çevik mexanizmlər əsasında həyata keçirilir.




*3. Məktəblər tədris mərkəzləri kimi*

Məktəblər qalır, lakin müxtəliflik və təcrübələr bir norma halına gəlir. "Məktəb divarları"nın açılması məktəbləri cəmiyyətlərlə birləşdirir, daim dəyişən təhsil, vətəndaş aktivliyi və sosial innovasiya formalarını təşviq edir.

*4. Nə qədər öyrənirsən, öyrən*

Təhsil hər yerdə və həmişə baş verir. Formal və qeyri-formal təlim arasındakı fərqlər artıq qüvvəyə malik deyil, çünki cəmiyyət tamamilə maşınların gücünə verilir.

A.Şleyxer hesab edir ki, bu ssenarilər bizi yenidənhazırlanma, məktəb təhsilindən imtina sahəsində mövcud tendensiyaların, o cümlədən tədris bazarlarının genişlənməsi, getdikcə daha fəal valideynlərin, həmçinin rəqəmsal texnologiyalara investisiyaların həcminin artması və onların insanların birləşdirilməsində rolunun, habelə təhsilin fərdiləşməsinə təsirinin həqiqi nəticələrini düşünməyə məcbur edir.

Ssenarilər təlim üçün fərdi motivasiyadan necə daha yaxşı istifadə olunması, həmçinin onun formal və qeyri-formal mənbələrini tanımaq, onlardan faydalanmaq üçün davam edən müzakirələrlə bağlıdır. Texniki tərəqqi son bir neçə onillikdə təhsilin özündə baş verən əsas dəyişikliklər və tendensiyalar kimi bir-biri ilə sıx bağlıdır.

### Məktəb təhsilinin gələcəyi necə olacaq?

OECD-nin rəsmi nümayəndəsi qeyd edir ki, təhsilin gələcəyi barədə düşünmək üçün əsas məsələ bundan ibarətdir: bizim indiki strukturlarımız vizyonumuza nə dərəcədə kömək edir və ya mane olur? Başqa sözlə, əgər bu gün biz planetə yenicə gəlmiş və öz təhsil sisteminin layihələşdirilməsinə dair məsləhətlər axtaran marslı ilə görüşsəydik, nə təklif edərdik?

İndi bildiyimiz kimi, məktəblərdən və məktəb təhsilindən başlamağı təklif edə bilərik və evin pəncərə və qapılarının yenidənqurulma sistemini, konseptual ekvivalentini modernləşdirməyi və təkmilləşdirilməsini məsləhət görərik? Yoxsa insanlar, məkan, vaxt və texnologiyalardan istifadə etmək üçün tamamilə fərqli bir yol təklif etmək daha yaxşıdır? Bu transformasiya proseslərində kimlər iştirak edəcək və həyatın hansı hissəsini əhatə edəcək (körpəlik? erkən uşaqlıq? yetkinlik, əmək dünyasına bağlılıq? Yoxsa, ömürlük, o cümlədən əhalinin yaşlı təbəqəsinin artması səviyyəsinə uyğun olaraq 80 və 90 + yaşlı təbəqəsi üçün təhsil) ?

Formal təhsildə iştirak bütün insanlar üçün artacaqmı? Yoxsa icmalar formal və qeyri-formal təlimin rolunu artırmaqla uşaqlarının təhsilində daha fəal iştirak edəcəklər? Təhsil texnologiyalarının vədləri doğrulacaqmı? Əgər belədirsə, bu davamlı transformasiya dəyişikliklərə və ya əvəzində radikal dağıntılara səbəb olacaqmı? Ssenarilərdən istifadə nazirlərdən və direktiv orqanlardan tutmuş müəllimlərə, valideynlərə və şagirdlərə qədər bütün subyektlərə bu məsələləri onların təhsil sisteminin yerli reallıq kontekstində öyrənilmsəsinə kömək edə bilər.

### Gələcək bütün problemlərin yox olduğu sehrli ölkə deyil

A.Şleyxerə görə, vacib məqam odur ki, gələcəyi düşünmək bizə fərziyyələri və planları sınamağa (stress-test etməyə) imkan verir. Bu, ssenarilərin istifadəsində lazımi addımdır. Gələcəyi bütün problemlərimizin yox olacağı yer kimi düşünməməliyik - əslində yeni çağırışlar gələcək. Təhsil sistemlərimiz, məsələn, virtual təhsil məkanları və şəxsi münasibətlər arasında, ya da təhsilin əhatəliliyinə və nəticələrinə təsir edən sosial bərabərsizliklə məktəb siyasəti və təcrübəsinin çoxalmasına və ya yumşalmasına kömək edə biləcək dərəcədə ziddiyyətlər və paradokslarla doludur.

OECD-nin gələcək məktəb təhsili üçün dörd ssenarisi ilhamlandırmaq, arzulamaq, transformasiya etmək məqsədilə istifadə edilə bilər. Onlardan gözlənilməz zərbələrin qarşısını almaq üçün istifadədə faydalanmaq olar.

Hər şeydən əvvəl, onlar bu günün və sonrakı illərin təhsil siyasəti və tədqiqatları ilə kəsişən ziddiyyət və paradoksları təqdim etməklə bizi özünü bəyənmə və asan qərarlar çərçivəsindən kənara çıxmağa təşviq edir. "Biz ümid edirik ki, yeni ssenarilər əsasında təhsilin gələcəyinə səyahət sizin xoşunuza gələcək. Xeyirxahlıq naminə onlardan istifadə edin. COVID-19 pandemiyası bizə xatırladır ki, alternativ gələcək uzaq bir xəyal deyil, amma sabah bizim reallığımız ola bilər",-deyə "PISA-nın atası" bildirir.

OECD qeyd edir ki, bu ssenarilər təxminən 20 il üçün nəzərdə tutulub, bu, futuroloqlardan və görücülərdən başqa hamı üçün çox uzaq olmayan, bilavasitə siyasi dövrlərdən kənara çıxan əhəmiyyətli dəyişikliklər üçün kifayət qədər uzun müddətdir.

Təhsil fərdlərin şəxsiyyət, vətəndaş və mütəxəssis kimi inkişaf etməsini dəstəkləmək missiyasını yerinə yetirməkdə davam etmək üçün daim inkişafda olmalıdır. Mürəkkəb və sürətlə dəyişən bir dünyada bu, formal və qeyri-formal öyrənmə mühitinin yenidən təşkil olunmasını, təhsilin məzmunu və əlçatanlığının yenidən gözdən keçirilməsini tələb edə bilər. Sürətlə dəyişən bir dünyada bu dəyişikliklər yalnız təməl təhsildə deyil, ömürboyu öyrənməyə də aiddir.

Sürətlə dəyişən dünyamızda təhsil gələcəyə hazırlaşmaq üçün keçmişin dərslərinə söykənə bilməz. Gələcək buradadır və təhsil sistemlərinin bundan dərs alması lazımdır. Uğurumuz gələcəyimizi təxmin etmək üçün biliklərimizdən nə qədər səmərəli istifadə etməyimizdən və onu formalaşdırmaq üçün nə qədər tez bir zamanda hərəkət etməyimizdən asılı olacaq.

- Formal təhsildə iştirakın genişlənməsi davam edir. Beynəlxalq əməkdaşlıq və texnoloji nailiyyətlər daha fərdiləşdirilmiş təlimi dəstəkləyir. Məktəb təhsilinin strukturları və prosesləri qalır.
- Cəmiyyət öz vətəndaşlarının təhsilinə birbaşa, daha çox cəlb olunduqca ənənəvi məktəb təhsil sistemləri sıradan çıxır. Təlim rəqəmsal texnologiyaların əsas amil kimi çıxış etdiyi daha fərqli, fərdi və çevik mexanizmlər əsasında həyata keçirilir.
- Məktəblər qalır, lakin müxtəliflik və təcrübələr bir norma halına gəlir. "Məktəb divarları"nın açılması məktəbləri cəmiyyətlərlə birləşdirir, daim dəyişən təhsil, vətəndaş aktivliyi və sosial innovasiya formalarını təşviq edir.
- Təhsil hər yerdə və həmişə baş verir. Formal və qeyri-formal təlim arasındakı fərqlər artıq qüvvəyə malik deyil, çünki cəmiyyət tamamilə maşınların gücünə verilir.
- Biz ümid edirik ki, yeni ssenarilər əsasında təhsilin gələcəyinə səyahət sizin xoşunuza gələcək. Xeyirxahlıq naminə onlardan istifadə edin.